

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

24 oktyabr
2024-cü il,
cümə axşamı
№ 196 (6782)
Qiyməti
60 qəpik


# 17 gərgin raunddan sonra...




Bax səh. 3




# İlham Əliyev “Dostluq” ordeni ilə təltif olundu

Bax səh. 2



# Terror aktını şiddətlə qınayırıq!

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ankarada törədilmiş terror aktı ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verib.**

**Dövlətimizin başçısı başsağlığı məktubunda bildirib: “Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca sarsıtdı.**

**Biz bu xain terror aktını şiddətlə qınayır, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm”.**

# Zəfərə 16 gün qalırdı...

Bax səh. 3



# Sığorta bazarı böyüsə də...

Bax səh. 5

# Ermənistanda keçirilən sorğunun gizli şifrəsi

Bax səh. 6



# Fransa müstəmləkəçiliyinə son!

Bax səh. 6

## Gələcəyimizin “Şahinlər”i...

Dövlətimiz uşaq və gənclərin istər mənəvi, istərsə də fiziki inkişafı üçün hərtərəfli tədbirlər həyata keçirir. Bu tədbirlər ilk növbdə gənclərimizin mənəvi aləmini zənginləşdirməyə xidmət edir. Ölkəmizdə bu sahədə bir çox dövlət proqramları və müvafiq qanunlar qəbul edilir. Təsadüfi deyil ki, dövlət başçısı da çıxışlarında dəfələrlə Azərbaycan gənclərinin mənəvi dəyərlərimiz əsasında tərbiyə almalı olduqlarını vurğulayıb.

Uşaqların fiziki və mənəvi inkişafından danışarkən orta məktəblərdə həyata keçirilən proqramları xüsusilə qeyd etmək lazımdır. Məlum olduğu kimi, gənclərin mənəvi inkişafında hərbi vətənpərvərlik tərbiyəsi mühüm əhəmiyyətə malikdir. Bununla bağlı zaman-zaman orta məktəblərdə...

Bax səh. 5

## Çinin Azərbaycanda yeni sərmayə planları

Pekində “Bir Kəmər Bir Yol” mövzusunda keçirilən Enerji Nazirlərinin 3-cü iclasında Çinin tanınmış texnologiya şirkətlərinin ölkəmizlə bağlı investisiya planları da diqqət mərkəzində olub. Azərbaycanın energetika naziri Pərviz Şahbazov tədbir çərçivəsində nüfuzlu Çin şirkətlərinin rəhbərləri ilə görüşərək ölkələrimiz arasında strateji tərəfdaşlığın mühüm sahələrindən birinə çevrilmiş “yaşıl enerji” əməkdaşlığının mövcud vəziyyəti və inkişaf etdirilməsi perspektivlərini müzakirə edib. Ümumilikdə, iclas Azərbaycan və Çin şirkətləri arasında bərpa olunan enerji sahələrində yeni layihələrin qiymətləndirilməsi və sərmayə imkanları...

Bax səh. 4

## Türkiyə terrorla mübarizəni gücləndirir

Türkiyə regionda, o cümlədən Yaxın Şərqdə sabitliyin və təhlükəsizliyin təmin olunması üçün mühüm təşəbbüslərlə çıxış edir. Uzun illərdir ki, Suriya böhranı da region üçün təhdid olduğundan rəsmi Ankara bu problemin tezliklə həllinin tərəfdarıdır. Suriyada qeyri-sabitlik, eləcə də PKK/YPG terrorçularının mövcudluğu Türkiyənin təhlükəsizliyi üçün problem olaraq qalır. Ona görə də, Ankara davamlı olaraq İraqla yanaşı, Suriya ərazisində də antiterror tədbirləri həyata keçirir. Bunun nəticəsində də xeyli sayda terrorçu zərərsizləşdirilib.

Bundan əlavə FETÖ terror təşkilatı da Türkiyənin daxilində...

Bax səh. 7

## Kiçik və orta biznesin inkişafı naminə...

Ölkəmizdə kiçik və orta biznesin (KOB) inkişafı sahəsində yürüdülən iqtisadi siyasət prioritet istiqamətlərdən biri kimi daim diqqətdə saxlanılmaqdadır. Dövlət tərəfindən bu sahəyə müxtəlif institusional və maliyyə dəstəyi tədbirləri həyata keçirilir, KOB layihələrinin sayının artırılması üçün müxtəlif təşviqedici alətlərdən istifadə olunur. Hazırda ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99,7 faizini kiçik və orta biznes subyektləri təşkil edir. Mikro, kiçik və orta sahibkarlıq müasir iqtisadiyyatların əsas sütunu və hərəkətverici qüvvəsi hesab olunduğundan onların fəaliyyətinin daha da yaxşılaşdırılması və şaxələndirilməsi...

Bax səh. 4

## 1 ildə 11-ci səfər

Yaxın Şərqdə gərginliyin artdığı son bir ildə ABŞ-ın regiona diqqəti daha da artıb. Ard-arda səsləndirilən dəstək bəyanatları, əməli addımlar, silah-sursat təsisatı və bu kimi fəaliyyətlər Vaşinqtonun məsələdəki mövqeyinə aydınlıq gətirir - nəticə etibarı ilə, ABŞ regionda ən yaxın müttəfiqini var gücü ilə dəstəkləyir. Xüsusilə, son aylarda İsrailin “Hizbullah” lideri Həsən Nəsrullahı, onun qohumu və mümkün varisi Haşim Safiəddini və bir sıra başqa komandirlərini məhv etməsi Vaşinqtonu bölgəyə daha diqqətlə fokuslayıb.

ABŞ Dövlət katibi Antoni Blinken İsrailə növbəti səfərini gerçəkləşdirib. Bu, 2023-cü il oktyabrın 7-də bölgədə vəziyyətin gərginləşməsindən sonra onun Yaxın Şərqə 11-ci səfəridir. Səfər çərçivəsində Blinkenin mühüm görüşləri nəzərdə tutulurdu. Dövlət Departamentinin mətbuat...

Bax səh. 7



# Aİ və AP - “Bir medalın iki üzü”

Bax səh. 3



# Gürcüstanda seçkilərə iki gün qalmış...

Bax səh. 5




# Prezident Kazanda...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin “Outreach” / “BRICS+” formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfərə gəlib.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının təyyarəsini Kazan Beynəlxalq Hava Limanına enərkən hərbi helikopterlər müşayiət edib.**

**Prezident İlham Əliyevi Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov qarşılayıb.**

# İlham Əliyev “Dostluq” ordeni ilə təltif olundu

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.

Dövlətimizin başçısını salamlayan Rüstəm Minnixanov Rusiya-Azərbaycan münasibətləri çərçivəsində respublikasına göstərdiyi diqqətə görə Prezident İlham Əliyevə təşəkkür edib: “Biz bunu çox yüksək qiymətləndiririk və əlbəttə ki, bizim Prezidentin belə bir dövlət səfərini həyata keçirdiyinə görə fəxr edirik. Həmin səfəri çox yaxşı işıqlandırdılar. Bu yaxınlarda Siz bizim rəhbəri təbrik etdiniz, çoxlu işgüzar məsələ var idi. BRICS-i bizə etibar ediblər. Vaxt tapıb gəlməyiniz və iştirak etməyiniz bizim üçün böyük şərəfdir. İcazə versəniz, həmkarlarımızla gördüyümüz işlərlə bağlı bəzi məsələləri məruzə etmək istərdim.

Prezident İlham Əliyev bir daha qardaş torpaqda olduğundan məmnunluğunu bildirib və BRICS sammitinin, həmçinin “BRICS+”un keçirilməsi münasibətilə Tatarıstan xalqını təbrik edib: “Bu, Rusiya Federasiyası rəhbərliyinin respublikaya, şəxsən Sizə, Tatarıstan vətəndaşlarına xüsusi münasibətinin təzahürüdür, həmçinin Tatarıstanın Sizin rəhbərliyinizlə nail olduğu potensialın göstəricisidir. Çünki belə bir irimiqyaslı sammitin keçirilməsi, əlbəttə ki, tədbirlərin, dövlət başçılarının ikitərəfli görüşlərinin təşkili üçün resursların, infrastrukturun, o cümlədən mehmanxana şəbəkəsinin olmasını tələb edir. Ona görə də əvvəlcədən səmimi təbriklərimi çatdırıram. Əminəm ki, hər şey ən yüksək səviyyədə keçəcək.

Əlbəttə, Tatarıstan ilə Azərbaycan arasında münasibətlər Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin mühüm tərkib hissəsidir. Siz də qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti bu ilin avqustunda Azərbaycana dövlət səfəri etdi. Bundan sonra da biz görüşmüşük. Beləliklə, ikitərəfli münasibətlərin dinamikası, o cümlədən Tatarıstan-Azərbaycan ikitərəfli formatı çox yaxşıdır. Bu gün onları müzakirə edəcəyik. Bizim yoldaşlarımız da görüşümüzə hazırlıqlı gəliblər. Zənnimcə, yaxın vaxtlarda yaxşı nəticələrin şahidi olacağıq”. Dövlətimizin başçısı R.Minnixanovu ölkəmizə səfərə dəvət edib.










Azərbaycan Prezidentinin Tatarıstanın ali dövlət mükafatı ilə təltif olunması haqqında Fərman oxundu: “Tatarıstan Respublikası Rəisinin Fərmanı ilə Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsinə görə Prezident İlham Əliyev “Dostluq” ordeni ilə təltif olunur”.

Dövlətimizin başçısı yüksək mükafata görə təşəkkürünü bildirib: “Bu, mənim üçün həqiqətən də böyük sürprizdir. Bu barədə təyyarə Kazana enəndə öyrəndim. Tatarıstan Respublikasının yüksək ordeni ilə təltif olunmaq böyük şərəfdir. Bütün Azərbaycan xalqı adından, şəxsən öz adımdan bir daha Sizə təşəkkür edirəm. Elə təyyarədə Sizin Azərbaycana və Bakıya sonuncu səfərinizi xatırlayırdım. Siz həm Cəbrayılda, həm də Zəngilanda tatar icması ilə birlikdə Sabantuy bayramında iştirak edirdiniz. Hədiyyəyə görə də sağ olun. Biz onu elə Sizin olduğunuz həmin bölgələrə - Zəngilana, Cəbrayıla göndərəcəyik, orada onlara çox ehtiyac var. Bu mükafata görə Sizə bir daha təşəkkürümü bildirirəm”.



# Prezident İlham Əliyev “Sberbank”ın İdarə Heyətinin sədri ilə görüşüb

**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının “Sberbank” Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref ilə görüşü olub.**

**AZƏRTAC xəbər verir ki, German Qref rəhbərlik etdiyi bankın həyata keçirdiyi işlər, o cümlədən bankın maliyyə sektoru ilə yanaşı, rəqəmsallaşma həlləri vasitəsilə səhiyyə, sosial, təhsil və digər sahələrlə bağlı fəaliyyəti barədə dövlətimizin başçısına ətraflı məlumat verdi. O, Azərbaycanın sürətli iqtisadi yüksəlişini və sosial inkişaf meyillərini xüsusi qeyd etdi.**

**Görüşdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.**

# Əməkdaşlıq üçün yaxşı imkanlar var

Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Milorad Dodik Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə çatdırmağı xahiş etdi.

Milorad Dodik Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. O, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə təbriklərini çatdırdı.

“Siz suveren Azərbaycanın güclü Liderisiniz. Güclü Lider olmadan güclü dövlət də ola bilməz”, - deyən Milorad Dodik Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurla inkişaf etməsini məmnunluqla qeyd etdi.

O, investisiyalar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu deyərək, Azərbaycanın yol infrastruktur şirkətlərinin Balkan regionunda uğurlu layihələr həyata keçirdiyini qeyd etdi və Bosniya və Herseqovinanın da bunda maraqlı olduğunu vurğuladı.

Prezident İlham Əliyev həm işğal, həm də işğaldan sonrakı dövrlərdə Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi.



Dövlətimizin başçısı Bosniya və Herseqovinaya səfərini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev enerji, nəqliyyat infrastrukturu və investisiyalar sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

# Azərbaycan Prezidenti Laosun Prezidenti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 23-də Kazanda Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Laos Prezidenti ölkəsi ilə Azərbaycan arasında yaxşı əlaqələrin olduğunu vurğulayaraq iqtisadiyyat, ticarət, investisiya, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızın inkişafı üçün əlverişli perspektivlərin mövcudluğunu qeyd etdi.

Thonqlun Sisulit hələ 1981-ci ildə Bakıda olduğunu məmnunluqla xatırlayaraq, ötən dövr ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini vurğuladı. O, sovetlər dövründə çox sayda laoslu mütəxəssisin Azərbaycanda təhsil almasına görə təşəkkürünü bildirərək, bu gün də həmin şəxslərin Laosda nazir, nazir müavini və digər rəhbər vəzifələrdə fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini dedi.

Thonqlun Sisulit dövlətimizin başçısını Laosa səfərə dəvət etdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti dəvətə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadiyyat, ticarət, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün müvafiq işçi qrupunun yaradılması və mütəxəssislərdən ibarət hökumət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın təhsil sahəsində Laosa bundan sonra da dəstək göstərməsi imkanlarına toxundu.

Görüşdə gələn il Azərbaycan ilə Laos arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunacağı vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı qeyd edildi.

# Dövlətimizin başçısı Kazanda Yeni İnkişaf Bankının prezidenti ilə görüşüb

**Oktyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazanda BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşü olub.**

**AZƏRTAC xəbər verir ki, Dilma Russeff Azərbaycanda COP29-un keçirilməsini xüsusi qeyd edərək, bu tədbirdə iştirak edəcəyini məmnunluqla vurğuladı. O, iqlim maliyyələşməsi mövzularının beynəlxalq maliyyə institutlarının diqqət mərkəzində olduğunu dedi və bu nöqteyi-nəzərdən Bakıda keçiriləcək COP29-un önəminə toxundu.**

**Söhbət zamanı qarşılıqlı maraq doğuran əməkdaşlıq imkanları müzakirə edildi.**



# Azərbaycan 2011-ci ilin 24 oktyabrında BMT TŞ-nin qeyri-daimi üzvü seçilmişdi

## 17 gərgin raunddan sonra...

Müstəqil xarici siyasət kursuna malik olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı strateji tərəfdaş, güclü və nüfuzlu aktor kimi şöhrət qazanıb. 2020-ci ildə Vətən müharibəsində əldə edilmiş qələbə nəticəsində Cənubi Qafqazda yeni münasibətlər sisteminin əsası, bölgənin təhlükəsizlik arxitekturasında yeni mərhələnin başlanğıcını qoyuldu. Beləliklə, geosiyasi məkanın lider dövləti qismində Azərbaycanın yaratdığı reallıqlar beynəlxalq səviyyədə qəbul olundu.

Ümumiyyətlə, Azərbaycanın yürütdüyü xarici siyasət kursu daim qlobal birlik tərəfindən yüksək dəyərləndirilib - özünün çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyasında ölkəmiz həm ikitərəfli, həm də çoxtərəfli münasibətlər kontekstində mühüm uğurlar qazanıb. Bu isə, regionun geosiyasi və geoiqtisadi, bir sözlə, geostrateji təhlükəsizliyinə fundamental töhfələr verir. Bu isə nəticə etibarı ilə Azərbaycanı regional aktordan qlobal strateji tərəfdaşa çevirib. Azərbaycan müasir beynəlxalq münasibətlər sistemi, eləcə də dünya siyasətinin nüfuz və güc iyerarxiyasında özünəməxsus yer qazanıb.

### Uğurlu xarici siyasətin nəticəsi...

Gənc müstəqil respublikamızın xarici stiyasət uğurlarının ən mühüm ştrixlərinə nəzər salarkən, təbii olaraq, göz önündə 2011-ci ilin oktyabrın 24-ü canlanır. Məhz həmin gün - 13 il öncə bu gün BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə əsasən, Azərbaycan 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Birləşmiş Millətlər Təşkilatının Təhükəsizlik Şurasında təmsil edəcək yeni qeyri-daimi (müvəqqəti) üzv seçildi. Azərbaycanın bu məsuliyyətli və ciddi etimada layiq görülməsi isə təsadüfi deyildi. Bu qələbəni şərtləndirən başlıca faktor Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional və praqmatik əsaslı, balanslaşdırılmış və çoxşaxəli xarici siyasət strategiyası idi. Azərbaycan özünün müstəqil və suveren xarici siyasət strategiyasının fonunda nəinki regionun ən güclü və nüfuzlu aktoru qismində çıxış etməkdə idi, qısa zamanda beynəlxalq münasibətlər sistemi çərçivəsində əksər milli dövlətlərin əməkdaşlıq etdiyi etibarlı tərəfdaşa çevrilmişdi. Azərbaycanın məlum parlaq qələbəsini şərtləndirən mühüm amil qismində çıxış edirdi. Çünki üzvlüyün əldə edilməsi olduqca çətin prosedurlara söykənirdi...

### Çətin keçən seçki prosesi - 155 səslik qələbə...

Azərbaycan BMT Təhlükəsizlik Şurasına iki illiyə qeyri-daimi üzvlüyə 17 raundluq gərgin səsvermədən sonra seçildi. Səsvermənin ilk raundu 21 oktyabrda baş tutdu - həmin səsvermədə Azərbaycan 74, rəqibləri Sloveniya 67, Macarıstan isə 54 səs topladı. Yetərsay olmadığı üçün (129 səs) Azərbaycanla Sloveniya növbəti raunda qatıldı. İkinci raundda da yetərsay əldə olunmadı - səsvermə 24 oktyabra qədər davam etdirildi. 24 oktyabrda keçirilən növbəti səsvermədə isə Azərbaycan 110, Sloveniya isə 83 səs topladı. Sloveniyanın 2012-2013-cü illər üçün qeyri-daimi üzvlüyə namizədliyini geri götürməsindən sonra yeganə namizəd kimi son səsvermədə iştirak edən Azərbaycan 155 səs toplayaraq növbəti iki il ərzində BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlük hüququ qazandı. Azərbaycanın Şuraya üzvlüyü 2012-ci il yanvar ayından başladı.

BMT TŞ beş daimi üzvdən-ABŞ, Rusiya, Böyük Britaniya, Fransa və Çindən və iki ildən bir seçilən 10 qeyri-daimi üzvdən ibarətdir. “Böyük beşlik”dən fərqli olaraq qeyri-daimi üzvlər veto hüququna malik deyillər. BMT Nizamnaməsinin 23-cü maddəsinə görə, Baş Assambleya Təhlükəsizlik Şurasının on qeyri-daimi üzvünü seçərkən, ilk növbədə, həmin ölkələrin beynəlxalq sülhün və təhlükəsizliyin saxlanması və təşkilatın digər məqsədlərinə nail olunmasında iştirak dərəcəsinə diqqət ayırır. Qeyd edildiyi kimi, ölkəmizin bu uğura imza atmasının kökündə dövlətimizin beynəlxalq təşkilatlarla və dövlətlərlə münasibətlərini düzgün qurması və balanslaşdırılmış xarici siyasət yürütməsi dayanırdı. Prezident İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi münasibətilə verdiyi bəyanatda qeyd olunduğu kimi Azərbaycanın xarici siyasəti əməkdaşlığı genişləndirməyə hədəflənib: “Bizim xarici siyasətimizin əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını təmin edir. Bu siyasət əməkdaşlığı genişləndirmək, artırmaq üçün aparılan siyasətdir”.





### Azərbaycan BMT TŞ-nin sədri kimi...

2012-2013-cü llər ərzində BMT TŞ-yə iki dəfə sədrlik edən Azərbaycan qurumun işinə mühüm töhfələri ilə yadda qaldı. 2012-ci ilin mayında həyata keçirilmiş birinci sədrlik dövründə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə mayın 4-də “Terrorizmlə mübarizə sahəsində öhdəliklərin yerinə yetirilməsi ilə bağlı beynəlxalq əməkdaşlığın gücləndirilməsi” adlı yüksək səviyyəli iclas keçirildi. İclasda Azərbaycanın təşəbbüsü ilə “Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər” mövzusunda müzakirələr aparıldı.

Azərbaycanın 2013-cü ilin oktyabrında BMT Təhlükəsizlik Şurasında başlayan ikinci sədrlik dövründə BMT tarixində ilk dəfə olaraq ölkəmizin təşəbbüsü ilə oktyabrın 28-də “Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi” mövzusunda qurumun yüksək səviyyəli iclası keçirildi. İclasın məqsədi BMT ilə üzv dövlətlərin sayına görə dünyada ikinci ən böyük hökumətlərarası təşkilat olan İƏT arasında beynəlxalq sülh və təhlükəsizliyin qorunması üzrə əməkdaşlığın hazırkı vəziyyətinin nəzərdən keçirilməsi və tərəfdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə dair mümkün birgə fəaliyyətlə bağlı müzakirələrin aparılması oldu. Beləliklə, hər iki sədrlik dönəmimizdə qurumun gündəliyi beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması ilə əlaqədar mühüm məsələləri əhatə etdi.

### Tarixi qələbə...

Azərbaycanın BMT TŞ-də 155 ölkə tərəifndən dəstəklənərək qeyri-daimi üzv seçilməsi həm də rəsmi Bakının siyasətə, yürütdüyü qlobal tərəfdaşlıq və əməkdaşlıq münasibətlərinə münasibət xarakteri daşıdı. Bu bir daha onu təsdiqlədi ki, Azərbaycan Cənubi Qafqazın hərbi-siyasi və iqtisadi təhlükəsizliyinin təmin olunmasına birbaşa töhfələr verməklə yanaşı, beynəlxalq müstəvidə mühüm təşəbbüslər irəli sürür, onların həlli uğrunda mübarizə aparır. Bütün bunlar ölkəmizin milli maraqlarına adekvat olmaqla bərabər, Azərbaycanın suverenlik səviyyəsini, heç bir dövlətdən, təşkilatdan asılı olmadığını da təsdiq edən fakta çevrilir. Həmin ərəfədə Prezident İlham Əliyev beynəlxalq KİV-ə müsahibəsində bildirmişdi ki, bu qələbə müstəqil Azərbaycanın bütün tarixi ərzində, bəlkə də, ən vacib, ən əhəmiyyətli və sanballı qələbədir: “Bu qələbə bizim həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gördüyümüz bütün işləri əks etdirir. Müstəqilliyin 20 ili ərzində biz buna nail olmuşuq ki, 155 ölkə, sizin dediyiniz kimi, gərgin mübarizədə bizim namizədliyimizi dəstəkləmişdir. Lakin deməliyəm ki, Azərbaycan bu mübarizədə ilk turdan başlayaraq liderlik edirdi və bütün mərhələlərdə böyük fərqlə irəlidə gedirdi. Nəticədə biz beynəlxalq birliyin çox böyük dəstəyini qazandıq. Məhz beynəlxalq birliyin - çünki yalnız bu cür format elə dünya birliyi, beynəlxalq birlik deməkdir. Bu, çox böyük siyasi qələbə, diplomatik qələbə, çox böyük məsuliyyət, həm də ölkəmizə, siyasətimizə hörmətin ifadəsidir”.

***P.SADAYOĞLU***

---

## Zəfərə 16 gün qalırdı...



2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

**Vətən müharibəsinin 28-ci günü**
**24.10.2020**

• Cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Azərbaycan Ordusunun bölmələri cəbhənin müəyyənləşdirilmiş istiqamətlərində döyüş fəaliyyətlərini davam etdirib. Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələrinin bölmələrinə sarsıdıcı zərbələr vurulub. Düşmənin silah-sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılıb, bir neçə dayaq məntəqəsi dağıdılıb, əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülüb və mühüm yüksəkliklər azad olunub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Prezident İlham Əliyev Fransanın “Figaro” qəzetinə müsahibə verib.

• Düşmənin məhv edilən çoxsaylı döyüş texnikalarının videogörüntüləri təqdim olunub.

• Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi və Ağdərə istiqamətində uçuş keçirməyə cəhd göstərən pilotsuz uçuş aparatını məhv edib. Bölmələrimiz Cəbrayıl rayonu istiqamətində “BZEZ” zərbə pilotsuz uçuş aparatını aşkarlayaraq xüsusi texniki vasitələrlə yerə endiriblər.

• Artilleriyaçılarımız düşmənin atəş nöqtələrinə dəqiq zərbələr endirirlər.

• Müdafiə Nazirliyinin məlumatına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində Ermənistan silahlı qüvvələrinin üç tankını, iki sığınacağını və dörd dayaq məntəqəsini dəqiq aviasiya zərbələri ilə məhv edib.

• Laçın və Qubadlı istiqamətlərində Azərbaycan Ordusunun hücumlarına qarşı müqavimət göstərə bilməyən və döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus və Qafan rayonları ərazisindən raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı ərazilərini güclü atəşə tutub. Ordumuz əməliyyat planına uyğun olaraq cəbhənin müxtəlif istiqamətlərində əks-hücumu davam etdirib. Ermənilərin könüllülərdən ibarət dəstələri və döyüş texnikası məhv edilərək bir neçə vacib yüksəkliklər azad olunub. Peşəkar Azərbaycan Ordusu yalnız düşmənin silahlı birləşmələrini və legitim hərbi obyektləri hədəfə alır.



• Ermənistanın siyasi-hərbi rəhbərliyi uşaqları da Qarabağda gedən hərbi əməliyyatlara cəlb edir.

• Ermənistan ordusunun Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriya və raket atəşinə tutması nəticəsində ümumilikdə 65 mülki şəxs həlak olub. Onların 18-i qadın, 10-u uşaqdır. Oktyabrın 4-də, 11-də və 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncədə 10-u qadın, 6-sı uşaq olmaqla 26 nəfər həyatını itirib, 138 nəfər yaralanıb. Bu barədə Baş Prokurorluq məlumat verib.

• ANAMA cəbhəyanı ərazilərdə 175 partlamamış hərbi sursat və iki dron aşkarlayıb.

• Ermənistan ordusu Goranboyda yaşayış məntəqəsinə “Smerç” raketləri atıb.

---

## Aİ və AP - “Bir medalın iki üzü”

### Hər iki təşkilat COP29 ərəfəsində Azərbaycana qarşı təzyiq cəhdlərini artırır

**Erməni lobbisinin yuvasına çevrilmiş Avropa Parlamenti ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycana qarşı total hücumlarını davam etdirir. Belə ki, 44 günlük Vətən müharibəsindən sonra bu təşkilat hər il bir neçə dəfə Azərbaycanı müzakirə edir və müxtəlif sənədlər qəbul edir. Artıq Avropa Parlamentinin ölkəmizlə bağlı yalan üzərində qurulmuş qətnamələrinin sayı-hesabı da bilinmir. COP29 ərəfəsində bu qərəz daha da çoxalıb. Bir sıra hallarda isə Avropa İttifaqı da Avropa Parlamenti ilə ortaq layihələr həyata keçirir. Çünki onlar necə deyərlər, “bir medalın iki üzü” hesab olunurlar.**



### Komissar Şmit də avroparlamentarilərlə eyni “avazı” oxuyur...

Müzakirələr zamanı çıxış edən Avropa Parlamentinin deputatları Azərbaycanda guya fundamental insan hüquqlarının pozulduğunu və qanunun aliliyinin təmin olunmadığını iddia ediblər. Görünən odur ki, Avropa Parlamentinin üzvləri COP29-un Bakıda keçirilməsini qəbul edə bilmirlər. Əgər belə olmasaydı, onlar “insan hüquqlarının pozulması şəraitində ekoloji problemlərin qorunmasının baş verə bilməyəcəyini” iddia etməzdilər. Hətta avroparlamentarilər daha “dərinə gedərək” Avropa İttifaqını Azərbaycanla qaz sazişinə xitam verməyə çağırıb, bəziləri Bakıda keçiriləcək COP29 konfransını boykot etməkdən danışıb, həmçinin Qarabağda “erməni mədəni irsinin qorunub saxlanması” və Qarabağ ermənilərinin öz evlərinə qaytarılmasını “tələb” ediblər.

Deyəsən, avropalı deputatların Azərbaycana qarşı qərəzli çıxışları Avropa İttifaqının komissarı Şmitin düşüncələrinə də təsir edib. Əgər belə olmasaydı, tədbirin açılışındakı çıxışı zamanı balanslı mövqe nümayiş etdirməyə çalışan Şmitin yekun çıxışı deputatların mövqeyi ilə üst-üstə düşməzdi. Belə ki, müzakirələrin sonunda komissar Şmit Azərbaycanda insan hüquqlarına hörmət məsələsinin hələ də vacib olaraq qaldığını deyib. O iddia edib ki, Azərbaycanı “Dağlıq Qarabağa beynəlxalq çıxışı” asanlaşdırmağa çağırmaq, yerlərdə vəziyyətin müstəqil monitorinqinə imkan vermək və “ən əsası” ermənilərin təhlükəsiz şəraitdə Qarabağa qayıtmasına imkan yaratmaq lazımdır.

### Aİ və AP-nin Azərbaycana qarşı növbəti tədbiri

Qeyd edək ki, oktyabrın 22-də Avropa Parlamentində növbəti dəfə “Azərbaycanda siyasi vəziyyət və insan haqları məsələləri” müzakirə edilib. Müzakirələr zamanı həmçinin Azərbaycan və Ermənistan münasibətləri də diqqət mərkəzində olub. Tədbir Avropa İttifaqının məşğulluq və sosial hüquqlar üzrə komissarı Nikolas Şmitin çıxışı ilə başlayıb. Komissar deyib ki, bir neçə həftədən sonra baş tutacaq COP29 konfransı “Azərbaycan hakimiyyəti üçün insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq öhdəliklərə sadiqliyini nümayiş etdirmək üçün yaxşı fürsət olacaq”. “COP29, həm də sülh üçün tarixi fürsətdir. Azərbaycan və Ermənistan onilliklər ərzində davam edən münaqişənin sona çatmasına heç vaxt bu qədər yaxın olmayıblar. COP29 Azərbaycan və Ermənistan üçün sülhə sadiqliklərini nümayiş etdirmək üçün tarixi şans olacaq”, - deyən N.Şmit iddia edib ki, “Azərbaycan həm ölkədə insan haqlarının vəziyyəti, həm də qonşusu ilə sülh prosesi baxımından mühüm seçim qarşısındadır”. Şmitin sözlərinə görə, Avropa İttifaqı öz kommunikasiya kanallarını açıq saxlamalı və onlardan regionda sülh və sabitliyi təmin etmək üçün istifadə etməlidir.





### XİN: Bu yanaşma Azərbaycan-Avropa münasibətlərini mürəkkəbləşdirir

Qeyd edək ki, məsələyə Azərbaycanın Xarici İşlər Nazirliyi münasibət bildirib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə qeyd edib ki, oktyabrın 22-də Avropa Parlamentində müzakirələr zamanı Avropa komissarı Nikolas Şmitin Azərbaycan əleyhinə səsləndirdiyi qəbuledilməz, əsassız və tamamilə qərəzli bəyanatını qətiyyətlə rədd edirik. Onun sözlərinə görə, komissarın Avropa Xarici Fəaliyyət Xidməti (AXFX) tərəfindən hazırlanan bu bəyanatı reallıqdan tamamilə uzaqdır və Azərbaycanın daxili işlərinə növbəti uğursuz müdaxilə cəhdidir: “Bəzi Azərbaycan vətəndaşlarının siyasi əqidəsinə və ya baxışlarına görə cinayət məsuliyyətinə cəlb edilməsi, yaxud özlərini jurnalist və ya insan haqları müdafiəçisi kimi təqdim edən şəxslərlə bağlı cinayət işlərinin siyasi motivli olması iddiası kökündən yanlışdır”.

Ayxan Hacızadə deyib ki, AXFX və Avropa Parlamentinin bu cür zərərli yanaşması çoxdan səmərəsiz olduğunu və heç bir nəticə vermədiyini sübut etməklə yanaşı, yalnız Azərbaycan-Avropa münasibətlərini mürəkkəbləşdirir. Avropa İttifaqının aidiyyəti qurumlarının Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzünə, bəzi Aİ ölkələrində insan haqları sahəsində kök salmış sistematik problemlərə, artan islamofobiya və ikrah doğuran neokolonial siyasətə, siyasi təqiblər nəticəsində həbs edilmiş şəxslərin həbsxanalarda və “sarı gödəkçəlilər” kimi aksiyalarda həyatlarını itirməsinə, habelə Yeni Kaledoniya və digər dənizaşırı ərazilərdə aksiyaların qanla boğulması kimi hallara tam etinasızlığı və biganəliyi fonunda, Avropa komissarının Azərbaycanda insan haqları məsələlərindən və Azərbaycan-Ermənistan arasında sülh səylərindən danışmağa mənəvi haqqı yoxdur.

“Bununla yanaşı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) iqlim dəyişikliyinin cavablandırılması işinin mahiyyətinə uyğun olmayan siyasi motivli məsələlərlə əlaqələndirmək cəhdləri bəzi Avropa siyasətçilərinin real simasını bir daha nümayiş etdirir. Biz, Avropa Parlamentini və ümumilikdə Aİ tərəfini regionda sülh və sabitliyə zidd olan birtərəfli mövqedən əl çəkməyə şiddətlə çağırırıq”, XİN-in mətbuat katibi vurğulayıb.

***Nardar BAYRAMLI***

# Çinin Azərbaycanda yeni sərmayə planları

## Pekində Çin şirkətlərinin ölkəmizdə rəqəmsal və “yaşıl layihələr”də iştirakına dair yeni razılaşmalar əldə olunub

Pekində “Bir Kəmər Bir Yol” mövzusunda keçirilən Enerji Nazirlərinin 3-cü iclasında Çinin tanınmış texnologiya şirkətlərinin ölkəmizlə bağlı investisiya planları da diqqət mərkəzində olub. Azərbaycanın energetika naziri Pərviz Şahbazov tədbir çərçivəsində nüfuzlu Çin şirkətlərinin rəhbərləri ilə görüşərək ölkələrimiz arasında strateji tərəfdaşlığın mühüm sahələrindən birinə çevrilmiş “yaşıl enerji” əməkdaşlığının mövcud vəziyyəti və inkişaf etdirilməsi perspektivlərini müzakirə edib.

Ümumilikdə, iclas Azərbaycan və Çin şirkətləri arasında bərpa olunan enerji sahələrində yeni layihələrin qiymətləndirilməsi və sərmayə imkanları baxımından məhsuldar olub.

Çinin “yaşıl texnologiyalar” üzrə tanınmış korporasiyalarından biri olan “China Energy International Group Co.,Ltd.” şirkətinin vitse-prezidenti Lin Siadon Azərbaycanın bərpa olunan enerji güclərinin inteqrasiyası, Xəzər dənizində külək enerjisi layihələrinin həyata keçirilməsi, enerji avadanlıqlarının istehsalının təşkili və “yaşıl enerji” dəhlizləri üzrə əməkdaşlığın artırılmasına dəstəyini ifadə edib. Şirkətin azad ərazilərdə tətbiq olunduğu layihələrin effektivliyini müsbət dəyərləndirən Lin Siadon Füzuli rayonunda 60 MVt-lıq və 100 MVt-lıq Günəş elektrik stansiyalarının tikintisini yaxşı nümunə adlandırıb. Həmin bölgədə “yaşıl güclərin” potensialının yüksək olması nəzərə alınaraq şirkətin digər layihələrdə də təmsil olunmaq niyyəti bəyan edilib. Çin şirkəti işğaldan azad edilmiş ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyasının inkişaf etdirilməsinə, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında da iştirak etmək imkanlarını artırmaq niyyətindədir. Həmçinin, digər ərazilərdə də Günəş enerjisi, dənizdə külək enerjisi layihələrinə sərmayə qoyuluşları müsbət dəyərləndirilib və bu istiqamətlərdə əməkdaşlığın hüquqi istinadı kimi işçi qrupunun yaradılması qərara alınıb. Yaxın günlərdə bununla bağlı Anlaşma Memorandumunun imzalanması nəzərdə tutulur.

### “China Energy” və “China Datang”in “ağıllı texnologiya”ları...

Qeyd edək ki, “China Energy” Dövlət Neft Şirkəti (SOCAR) ilə də sıx əməkdaşlıq edir. Bir müddət əvvəl Bakıda olan şirkətin nümayəndə heyəti quruda və dənizdə külək enerjisi ilə bağlı potensialları qiymətləndirərək istehsal zəncirinə qoşulmağa qərar verib, iyun ayında SOCAR-la Əməkdaşlıq Sazişi imzalanıb. Sənədə əsasən, “yaşıl hidrogen” daxil olmaqla bərpa olunan enerji mənbələrinin inkişafı sahəsində birgə işlər həyata keçiriləcək.

Azərbaycanın energetika nazirinin “China Datang Corporation Limited” şirkətinin İdarə Heyətinin sədri Cou Ley ilə görüşündə rəqəmsal texnologiyalar sahəsində əlaqələrin inkişaf etdirilməsinə toxunulub. Qeyd edilən şirkət qlobal bazarlarda rəqəmsal texnologiaylar üzrə liderlərdən biri kimi fiberoptik “yaşıl kanallar”ın çəkilişində əsas təchizatçılarındandır. Bu baxımdan Azərbaycandan Avropaya “yaşıl enerji”nin ixracını nəzərdə tutan Xəzər-Qara dəniz- Avropa” “yaşıl kabel”inin çəkilişində Çinin adıçəkilən şirkəti investor və texnologiya təminatçısı kimi fəal rol oynaya bilər.

“China Datang” şirkətinin də Azərbaycanda “yaşıl layihə”lərə marağı böyükdür. Bu şirkət müxtəlif sektorlarda, xüsusilə də sənaye sahələrində karbon qazının idarə edilməsi və emissiyasının azaldılmasında rol oynayan müasir “ağıllı texnoiloglya”ların tətbiqi üzrə nüfuz qazanıb. Asiya və Avropanın bir çox regionlarında şirkətin təmsilçiliyi sayəsində sənaye və tikintidə ekoloji mühitlə bağlı layihələrdə uğurlar əldə olunub. Eləcə də elektrik enerjisinin planlaşdırılması və mühəndislik institutunun yaradılması sahəsində bu şirkətin təcrübəsi böyükdür. Bu baxımdam “China Datang” şirkətinin təcrübəsindən ölkəmizdə də istifadə edilməsi məqsədəuyğun hesab olunur. Şirkətlə yaxın günlərdə əməkdaşlıq sənədinin imzalanması nəzərdə tutulur ki, bu, Azərbaycanda təmiz enerjiyə keçid transformasiyasına töhfə verə bilər.

### “Huavey”ə Qarabağ və Şərqi-Zəngəzurda...

Dünya texnologiyalar sektorunun liderlərindən biri olan “Huawei” şirkəti xeyli müddətdir ki, Azərbaycanın İKT sektorunda təmsil olunur. 2000-ci illərin əvvəlində ölkəmizin İKT bazarına daxil olmuş bu transmilli şirkət rabitə avadanlıqlarının təchizatı, quraşdırılması, təkmilləşdirilməsi, müxtəlif növ müasir texnoloji həllərin tətbiqi, mobil avadanlıqlar və smartfonların tədarükü ilə bazar payını 50 faizə yaxınlaşdırıb. Hazırda “Huavey”ə 5G texnologiyasının Azərbaycanda tətbiqi ilə yanaşı, Qarabağ və Şərqi-Zəngəzurda mobil sistemlərin qurulması, “ağıllı şəhər” və kəndlərin rəqəmsal avadanlıqlarla təchizatı prosesində iştirak etməkdədir. Şirkətin vitse-prezidenti Kay Son bildirib ki, Azərbaycanla əməkdaşlıq çərçivəsində “Huawei” öz texnoloji potensialını və rəqəmsal enerji sahəsindəki təcrübəsini daha da genişləndirmək niyyətindədir. Xüsusilə də azad ərazilərdə rəqəmsal enerji, “ağıllı şəbəkə” infrastrukturunun təminatında daha çox yer almaq istəyir. Bundan başqa, Asiya-Azərbaycan-Avropa fiber-optik kabel layihələrində “yaşıl enerji” əsaslı məlumat mərkəzinin yaradılmasına öz töhfəsini vermək niyyətindədir.

Çinin “China Gezhouba Group Overseas Investment” şirkəti isə Azərbaycanda 2 giqavatt gücündə bərpaolunan enerji layihələrini icra edəcək. Şirkət sənaye miqyaslı Günəş enerjisi, quruda və dənizdə külək enerjisi istehsalı, enerji saxlama və inteqrasiya olunmuş “ağıllı enerji” sistemlərinin qurulması,”yaşıl hidrogen” istehsalına investisiya qoyuluşu proqramını açıqlayıb və yaxın vaxtlarda niyyət sənədinin imzalanması gözlənilir.

Çinin “Fiber-Home Telecommunication Technologies Co., Ltd.” şirkəti isə müasir rəqəmsal infrastrukturların qurulmasında öz köməyini təklif edir. Oktyabrın 15-də Azərbaycan İnvestisiya Holdinqi ilə şirkət arasında imzalanmış əməkdaşlıq üzrə Anlaşma Memorandumuna əsasən, “ağıllı infrastruktur”, innovativ mexanizmlər və informasiya texnologiyaları istiqamətlərində layihələr icra olunacaq.



### 2030-cu il hədəfinə töhfə...

“FiberHome”un icraçı direktoru Hai Lan bildirib ki, şirkət telekommunikasiya texnologiyaları sahəsində ən son modellərin Azərbaycanda tətbiqi üçün sərmayə proqramı icra etməyə hazırlaşır. Həmçinin Çinin “Wenzhou Nixin Trading Co. Ltd”, “Wontai Power” və digər İT və “ağıllı texnologiyalar” üzrə ixtisaslaşmış şirkətləri də ölkəmizdə təmiz enerjiyə keçid strategiyasına əsasən, müasir sənaye klasterlərinin, rəqəmsal idarəetmə mərkəzlərinin yaradılmasında iştirak etmək planlarını nəzərdən keçirir.

Ümumilikdə, Çinin digər şirkətlərinin də ölkəmizin “yaşıl sektoru”na marağı böyükdür. Son aylarda bu ölkənin şirkətləri ilə bərpa olunan enerji, enerji saxlancı sistemləri və şəbəkə infrastrukturları, “ağıllı texnologiyalar”ın təchizatı, “yaşıl enerji” və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlığa dair əldə edilmiş razılıqlar yaxın perspektivdə Azərbaycanın İT və “yaşıl texnologiyalar” sektorunda Çinin böyükhəcmli sərmayə bumunun başlayacağından xəbər verir. Sərmayələrin artması isə Azərbaycanın 2030-cu ilə dair sosial-iqtisadi inkişaf prioritetlərində nəzərdə tutulan əsas hədəflərdən birinin - ölkəmizin innovasiyalar məkanına çevrilməsinin gerçəkləşməsində əhəmiyyətli rol oynayacaq.

*ELBRUS CƏFƏRLİ*

# Kiçik və orta biznesin inkişafı naminə...

## Mikromaliyyə Konfransında biznesin maliyyə təminatı ilə bağlı yeni hədəflər elan edilib

Ölkəmizdə kiçik və orta biznesin (KOB) inkişafı sahəsində yürüdülən iqtisadi siyasət prioritet istiqamətlərdən biri kimi daim diqqətdə saxlanılmaqdadır. Dövlət tərəfindən bu sahəyə müxtəlif institusional və maliyyə dəstəyi tədbirləri həyata keçirilir, KOB layihələrinin sayının artırılması üçün müxtəlif təşviqedici alətlərdən istifadə olunur. Hazırda ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 99,7 faizini kiçik və orta biznes subyektləri təşkil edir. Mikro, kiçik və orta sahibkarlıq müasir iqtisadiyyatların əsas sütunu və hərəkətverici qüvvəsi hesab olunduğundan onların fəaliyyətinin daha da yaxşılaşdırılması və şaxələndirilməsi, yeni iqtisadi reallıqlar şəraitində innovasiya proseslərinə cəlb edilməsi, habelə maliyyə təchizatının gücləndirilməsi əsas çağırışlardandır.




### Mikrosahibkarlara verilən kreditlərin həcmi 33 faiz artıb

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən “Dayanıqlı Mikromaliyyə üçün İnnovativ Həllər” mövzusunda Azərbaycan Mikromaliyyə Konfransında bildirib ki, 2023-cü il və 2024-cü ilin ötən dövrlərində, mikro sahibkarlara verilən kreditlər 33 faiz artıb. Qeyd edək ki, 2024-cü il oktyabrın 1-nə Azərbaycanda mikrokredit portfeli 630 milyon manat təşkil edib. Bu, ölkə üzrə kredit qoyuluşunun 2,4 faizi deməkdir. Bu rəqəm qanedici olmasa da, son dövrlərdə mikromaliyyə şəbəkəsinin böyüməsi üçün imkanlar artır, banklar və digər maliyyə təşkilatlarının bu sahənin maliyyələşdirilməsində həmrəyliyi mövcuddur.

Mikromaliyyələşmədə müsbət tendensiyanın davam etməsinə baxmayaraq, qeyd edilən dövrdə bankların orta və kiçik sahibkarlara verdiyi kreditlərin məbləğində müəyyən azalma olub. Dövlət xətti ilə yəni Sahibkarlığın İnkişafı Fondu vasitəsilə kiçik və orta biznesə verilən güzəştli kreditlərin məbləği və iqtisadi rayonlar üzrə coğrafiyası artsa da, kommersiya bankları bu məsələdə xəsislik edir, öz portfelindən biznes kreditlərindən daha çox istehlak kreditlərinə vəsait yönəldir. Ölkəmizin müasir iqtisadi inkişaf ehtiyacları, xüsusilə də regionlarda qeyri-neft sektorunun inkişafına yönəlmiş dövlət dəstəyi tədbirləri müqabilində bankların da bu sahəyə xüsusi diqqətinin artmasına ehtiyac duyulur. Onu da nəzərə alsaq ki, Mərkəzi Bank tərəfindən son bir ildə uçot dərəcələri davamlı olaraq aşağı salınır ki, bu amil də bankların kredit faizlərini aşağı salmasına imkan verir. Ona görə də bank və bank olmayan kredit təşkilatlarının KOB-ların maliyyələşməsi və regionların kreditləşməsində fəaliyyətini artırmasına ehtiyac var.

### Kiçik sahibkarların maliyyə əlçatanlığı asanlaşdırılacaq

KOBİA ölkədə kiçik sahibkarlığa dəstəyin artırılması məqsədilə Sahibkarlığın İnkişafı Fondu ilə daha çox əməkdaşlıq edir və davamlı yeni mexanizmlər işlənilib hazırlanır. Məsələn, KOBİA ilə Fond birgə anlaşma əldə edərək ötən ildən etibarən kiçik məbləğli güzəştli kreditə ehtiyacı olan sahibkarlara münasibətdə yeni mexanizmin tətbiqinə start verib. Həmin mexanizm çərçivəsində kiçik sahibkarlara 5,7 milyon manatlıq 914 bildiriş verilib ki, onun 3 milyon manatlıq 514 bildiriş hissəsi 2024-cü ilin ötən 9 ayında təqdim olunub. Bu mexanizm özünün müsbət effektini göstərdiyindən daha da genişləndirilməsi nəzərdə tutulur. Xüsusilə də bu model əsasında regionlarda çalışan kiçik biznes subyektlərinin maliyyə əlçatanlığını asanlaşdırmaqda ən yaxşı alətlərdən biri hesab olunur, eyni zamanda, risk amilini azaldır.

KOBİA mikromaliyyələşmə xidmətləri sahəsində vacib sayılan təkmilləşdirmələrin bir istiqaməti kimi bank və kredit təşkilatlarının faizlərinin də aşağı salınmasını məqsədəuyğun hesab edir. Biznes sektorunun KOBİA-ya müraciətlərinin təhlili göstərir ki, sahibkarlıq subyektləri yüksək faiz dərəcələri səbəbindən maliyyə ehtiyaclarını təmin edə bilmir, daha münasib şərtlərlə və aşağı faizli kreditlərə çıxışları mümkündür. Ona görə də bank-sahibkar dialoqunun artırılması, yeni faiz dəhlizlərinin formalaşması ilə əlaqədar məsləhətləşmələr aparılır.

Ümumilikdə, KOBİA kiçik və orta biznesin dəstəkləyicisi kimi maliyyə ehtiyaclarının ödənilməsinin ən yüksək səviyyəyə çatdırılması istiqamətində bütün tərəflərlə konstruktiv əməkdaşlığı artıraraq münasib çərçivənin hazırlanmasına çalışacaq. “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda KOB subyektləri ilə bağlı nəzərdə tutulan hədəflərin reallaşması istiqamətində tədbirlər davam etdiriləcək.

### Məsafədən kreditləşmənin şərtləri müəyyən ediləcək

Mərkəzi Bankın baş direktoru Toğrul Əliyev isə bildirib ki, kiçik və orta biznesə maliyyə dəstəyinin artırılması məqsədilə müxtəlif təchizat kanalları yaradılması nəzərdə tutulur ki, onlardan biri yeni mikromaliyyə modelinin təşkilidir. “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası” çərçivəsində nəzərdə tutulan bu model qabaqcıl beynəlxalq təcrübəyə əsaslanmaqla mikromaliyyə sektorunda fəaliyyət göstərən institutlara əlavə maliyyə xidmətləri göstərilməsini nəzərdə tutur. Bundan başqa, sözügedən strategiyada dayanıqlı mikromaliyyə və bank olmayan kredit təşkilatlarının (BOKT) modellərinin araşdırılması və mikromaliyyə institutlarının fəaliyyətinin gücləndirilməsi, biznes modellərinin təkmilləşdirilməsi və yeni tənzimləyici mexanizmlərin hazırlanması, maliyyələşmə mənbələrinin diversifikasiyası kimi layihələr öz əksini tapıb. Bu prosesdə əsas maliyyə donoru kimi banklarla yanaşı, BOKT-ların da bizneslə təmaslarının artırılmasının təşviqi də prioritetlərdən biridir. Buna həmin qurumların maliyyə portfeli də imkan verir. Belə ki, 302-yə yaxın filial şəbəkəsinə malik olan BOKT-ların aktivləri hazırda 500 milyon manatdan çoxdur və bu sektorun aktivləri artmaqda davam edir. 2025-ci ildə BOKT-ların maliyyə portfelinin 1 milyard manata çatacağı gözlənilir, bu da kiçik biznesin maliyyə təminatında onların da üzərinə əlavə öhdəliklər qoyur. Yeri gəlmişkən, yaxın vaxtlarda BOKT-lara bank xidmətlərinin bəzi çeşidlərinin tətbiqi icazəsinin verilməsi, o cümlədən hesab açmadan pul köçürmələrinin həyata keçirilməsi və valyuta mübadiləsinin aparılmasında iştirakının təmin olunması gözlənilir ki, bu da onların maliyyə iştirakçılığında roluna artıra bilər.

Mikrosahibkarlıq subyektlərinin maliyyə əlçatanlığının yaxşılaşdırılması üçün nəzərdə tutulan alətlərdən biri də məsafədən kreditləşmənin tənzimlənməsidir. MB-nin kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin şöbə rəisi Xəyyam İsmayılovun sözlərinə görə, bu istiqamətdə beynəlxalq təcrübə öyrənilir və yerli bank prioritetləri nəzərə alınmaqla məsafədən kreditləşmənin ümumi şərtləri müəyyən ediləcək. Qeyd edək ki, məsafədən kreditləşmə rəqəmsal bankçılıq xidmətlərinin müasir vasitələrindən biridir və biznesin elektron bank xidmətləri ilə daha yaxşı əhatə edilməsini nəzərdə tutur. Bu, sahibkarlıq sektoru təmsilçilərinin banka getmədən kredit xidmətlərinə çıxışını təmin etməklə vaxt və inzibati xərcləri azaldır, risklərin daha effektiv idarə olunmasına imkan verir.

### Rəqəmsal və “yaşıl layihələr”ə mikrokreditlər veriləcək

Biznes icması bu dəstəkləyici tədbirləri yüksək dəyərləndirərək bununla yanaşı, bank və kredit təşkilatlarından, sahibkarlığa dəstək fondlarından daha çox maliyyə axınının təmin edilməsi üçün təşviqedici və stimullaşdırıcı addımların atılmasını, alternativ maliyyə alətlərinin tətbiqini istəyir. Sahibkarlar Təşkilatları Milli Konfederasiyası bununla bağlı müvafiq təkliflər hazırlayaraq kredit institutlarına və müvafiq qurumlarına təqdim edib. Təkliflərdə kiçik və orta müəssisələr üçün maliyyə resurslarına çıxışı asanlaşdıra, maliyyə imkanlarını optimallaşdıra biləcək daha innovativ layihələrə motivasiyaların yaradılması əks olunub. Xüsusilə də, ənənəvi biznesdən fərqli olaraq, müasir rəqəmsal layihələrə, o cümlədən “yaşıl iqtisadiyyat”a keçidin tələblərinə uyğun olaraq ətraf mühitə zərərləri azaldan sənaye və “yaşıl sektor”a güzəştli və asan maliyyənin ayrılması vacib hesab edilir.

Ümumiyyətlə, yaxın dövrün əsas strateji prioritetlərindən biri Azərbaycanda mikromaliyyə şəbəkəsinin genişləndirilməsi, bu sahədə cəmləşən biznes icmasını daha innovativ və rəqəmsal layihələrə motivasiya etmək üçün onlara müxtəlif iqtisadi stimulların verilməsi, rəqəmsal mikromaliyyə landşaftının möhkəmləndirilməsi nəzərdə tutulur. Həmçinin, güzəştli kredit mexanizminin tam elektron platforma üzərindən həyata keçirilməsi planlaşdırılır. Bu, sahibkarların maliyyəyə, xüsusilə güzəştli maliyyəyə çıxışını asanlaşdırmaq məqsədi daşıyır.

*ELBRUS CƏFƏRLİ*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti üzrə hazırlanmışdır

# Gələcəyimizin "Şahinlər"i...

## Fiziki və mənəvi olaraq hərtərəfli yetişdirilən gənclərimiz

Dövlətimiz uşaq və gənclərin istər mənəvi, istərsə də fiziki inkişafı üçün hərtərəfli tədbirlər həyata keçirir. Bu tədbirlər ilk növbədə gənclərimizin mənəvi aləmini zənginləşdirməyə xidmət edir. Ölkəmizdə bu sahədə bir çox dövlət proqramları və müvafiq qanunlar qəbul edilir. Təsadüfi deyil ki, dövlət başçısı da çıxışlarında dəfələrlə Azərbaycan gənclərinin mənəvi dəyərlərimiz əsasında tərbiyə almalı olduqlarını vurğulayıb.

Uşaqların fiziki və mənəvi inkişafından danışarkən orta məktəblərdə həyata keçirilən proqramları xüsusilə qeyd etmək lazımdır. Məlum olduğu kimi, gənclərin mənəvi inkişafında hərbi vətənpərvərlik tərbiyəsi mühüm əhəmiyyətə malikdir. Bununla bağlı zaman-zaman orta məktəblərdə və hərbi liseylərdə bəzi hərbi-idman oyunlarının təşkil olunduğunu qeyd edə bilərik. Bu sırada "Şahinlər" hərbi-idman oyunlarının adını xüsusilə vurğulamaq yerinə düşər.




Məktəblilərin həm fiziki, həm də mənəvi inkişafını vəhdət şəklində özündə birləşdirən bu oyun pedaqoji prosesin tərkib hissələrindəndir. Belə ki, "Şahinlər" hərbi-idman yarışı şagirdlərə Vətəni sevənlərin güclü olmasını aşılayır. Bu yarışda onların fiziki hazırlığı sınanır, vətənpərvər gənclərin həm də savadlı olmaları, intellektual səviyyələrinin yüksək olması vurğulanır. İldə bir dəfə keçirilən "Şahinlər" hərbi-idman oyunları eyni zamanda şagirdlərin özünəinam hissini də formalaşdırır.

**Mənəvi inkişaf qədər fiziki inkişaf da vacibdir**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, vətənpərvərlik Vətəni sevmək, Vətəni sevdirməkdir. Ona görə də bu gün uşaqlarımızın mənəvi inkişafı onların ilk növbədə vətənpərvər bir şəxsiyyət kimi yetişməsi deməkdir: "Ancaq uşaqların mənəvi inkişafı qədər fiziki inkişafı da olduqca mühüm xarakter daşıyır. Sevindirici haldır ki, bu proses ölkəmizdə paralel olaraq gedir. Belə ki, Prezidentin İlham Əliyevin 7 iyul 2011-ci il tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının 6.2.5-ci bəndinin icrası ilə əlaqədar olaraq "Şahin" hərbi-idman oyunu hər il ənənəvi olaraq ölkə üzrə məktəbli gənclər arasında keçirilir. "Şahin" hərbi-idman oyununun keçirilməsində məqsəd böyüməkdə olan nəslin hərbi vətənpərvərlik tərbiyəsinə diqqət və qayğını daha da artırmaq, məktəb şagirdlərini hərbi-idman oyunlarına geniş cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasına kömək göstərilməsindən ibarətdir. Hərbi-idman oyunları zamanı məktəblilər sıra hazırlığı, maneələri dəf etmə, avtomatın sökülüb-yığılması, 100 metr məsafəyə qaçış, turnikdə dartınma, mülki müdafiə hazırlığı, sanitarların yarışı və digər mərhələlər üzrə qüvvələrini sınayırlar".

**Yeniyetmələrin xarakterini formalaşdırır**

Ə.Verdiyev qeyd edib ki, "Şahinlər" hərbi-idman oyunları yeniyetmələrin xarakterini formalaşdırmaqla, onların hərbi xidmətə marağını da artırır, onları bu xidmətə hazırlayır. Ekspertin sözlərinə görə, sağlam rəqabət inkişaf deməkdir, ona görə də bu oyunda komandalar rəqiblərinin qabiliyyətlərini, bacarıqlarını görür, nələrisə mənimsəyirlər: "İldə bir dəfə olmaqla baş tutan "Şahinlər" hərbi-idman oyunlarının təşkilində və keçirilməsi ilə gənc nəslin fiziki və mənəvi formalaşma prosesinin şahidi oluruq. Gənclərin, yeniyetmələrin, məktəblilərin milli-mənəvi dəyərlər əsasında formalaşmasında "Şahinlər" hərbi-idman oyunlarının böyük əhəmiyyəti var. Bu kimi tədbirlərin keçirilməsinə həmişə böyük məsuliyyət və böyük istəklərlə yanaşırıq".

**Şagirdləri hərbi xidmətə hazırlayır...**

Ekspertin sözlərinə görə, "Şahinlər" hərbi-idman oyunları iştirakçıların həm fiziki, həm də mənəvi hazırlığını artırır, onların xarakterində mətinlik yaradır, malik olduğu mətinliyi daha yüksək səviyyədə formalaşdırır: "Eyni zamanda bu oyunları hərbi xidmətə hazırlığın pedaqoji əsaslarla təlimi adlandıra bilərik. Yarışın ən maraqlı mərhələlərindən biri də intellektual müsabiqə olan mərhələsidir. Buna biliklərin yarışı da deyə bilərik. Hər komandadan bir nəfər yarışır. Belə yarışlarda dərsliklərdən öyrənilənlər azlıq edir, əlavə ədəbiyyatlardan, internet məlumatlarından əldə olunan bilik də gərəkli olur. İştirakçının biliklər sistemi yarışın gedişində əsaslı dəyişiklik yaradır, komandaya uğur gətirir. Ümumiyyətlə, yarışın hər mərhələsi münsiflər heyəti tərəfindən ayrılıqda qiymətləndirilir və qaliblər müəyyənləşdirilir".

*Yeganə BAYRAMOVA*

# Sığorta bazarı böyüsə də...

## Xidmət və xərc zərfi qaneedici deyil

2024-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanda 17 sığorta şirkətinin topladığı sığorta yığımlarının məbləği 1 milyard 23 milyon manatdan çox olub. Bu, ötən ilin eyni dövrünə nisbətən 9,4 faiz və 100 milyon manat çoxdur. Sığorta şirkətlərinin həmin dövr üzrə həyata keçirdikləri ödənişlərin məbləği isə 553,746 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 38,3 faiz çoxdur.

Göründüyü kimi sığorta sektorunda məcmu yığımın təxminən 47-48 faizi sığorta hadisəsi ilə bağlı ödənişlərə xərclənib, şirkətlərin aktivində isə 550 milyon manatdan çox vəsait qalıb. Nəticədə sığorta sektorunda xalis mənfəətin həcmi də əhəmiyyətli həcmdə böyüyüb.

**Hər 2 manatdan bir manatı şirkətlərin özünə qalır**

Mövcud qərəmlər onu göstərir ki, sığorta şirkətləri müştərilərdən və müəssislərdən hər topladığı 2 manat sığorta haqqının 1 manatını onların sığorta xidmətlərinə xərcləyir, qalan 1 manatı isə onların mənfəəti kimi aktif portfelində qalır. Ancaq buna baxmayaraq, sığorta şirkətlərinin təqdim etdiyi xidmət çeşidlərində ciddi dönüş müşayiət olunmur, müştərilərə xidmətin keyfiyyəti daha da aşağı düşür, yeni xidmət alətləri tətbiq olunmur. Bir çox hallarda vətəndaşlara dəymiş zərər zamanı (sığorta hadisəsi) sığorta haqqı ödənilmir.

Hazırda sığorta sektorunda ən çox müşahidə edilən nöqsanlar mənzil və daşınmaz əmlak bazarı və avtomobil sığortası ilə bağlıdır. Hər 2 sahə üzrə sığorta hadisəsi zamanı zərərin dəyərinin təyin edilməsi və sığorta hadisəsinin aktlaşdırılmasında ciddi nöqsanlar müşahidə edilir. Xüsusilə də kasko sığortasında narazılıqlar son 2 ildə ən yüksək səviyyəyə çatıb. Bütün bunlar xarakterik hallardır və sığorta şirkətlərinin bu xidmətlər üzrə sığortadan imtinasının nəticəsidir ki, onlar gəlirlərinin təxminən 50 faizini xərcləyir. Beynəlxalq praktikada iri sığorta korporasiyalarının ümumi portfelinin az qala 70-80 faizi xərclərə yönəlir.

**Ekoloji sığorta paketlərinin tətbiqi üçün öhdəliklər...**

Məsələ ondadır ki, dünyada sığorta şirkətlərinin xərc paketində ən üstün yer tutan sahələrdən biri olan daşınmaz əmlakın sığortasına bizim şirkətlər daha az yer ayırır. Sığorta şirkətlərinin əmlakla bağlı sığorta ödənişləri yetrəli həcmlərdə deyil və bu, ona dəlalət edir ki, şirkətlər bu sahəni özləri üçün riskli hesab edir. Eləcə də sığorta şirkətləri ekoloji sığorta məhsullarına az yer ayırır, iqlim sığortası paketi demək olar ki, tətbiq olunmur. Halbuki dünyada sığorta bazarının əhəmiyyətli hissəsi, təxminən 35 faizi ekoloji sığorta paketlərindən ibarətdir. Ələlxüsus da son illərdə qlobal iqlim dəyişikliyinin yaratdığı təbii fəlakətlər qarşıya yeni sığorta məhsullarını çıxarır, qlobal sığorta holdinqləri bu sahənin inkişafını prioritet hesab edir. Bundan başqa, son illərdə iri sığorta qrupları iqlim dəyişikliyinə səbəb olan istixana qazlarının emissiyasının azaldılması istiqamətində beynəlxalq öhdəliklərə uyğun olaraq, yeni sığorta məhsullarını hazırlayaraq reallaşdırırır.

Bütün bunlar Azərbaycanın sığorta sektoru üçün də yeni çağırışlar deməkdir. Nəzərə alsaq ki, Azərbaycanda "Dayanıqlı Maliyyə üzrə Yol Xəritəsi: 2023-2026" strategiyası hazırlanıb və sənədin əsas istiqamətlərindən biri "yaşıl maliyyə" alətlərinin, yeni məhsul və xidmətlərin tətbiqi ilə bağlıdır, onda bu nöqteyi-nəzərdən sığorta şirkətlərinin üzərinə də böyük məsuliyyət və öhdəlik düşür. Xüsusilə də beynəlxalq praktikada geniş yayılmış ekoloji məsuliyyət sığortasının tətbiqi aktuallaşıb. Həmin sığorta növü ekoloji zərərlərin aradan qaldırılmasına və ekosistemin tarazlığının təmin edilməsinə xidmət edir, eyni zamanda, aqrar sığorta sisteminin əsasını təşkil edir. Qlobal iqlim fəsadlarının kənd təsərrüfatı məhsullarının istehsalına təsirlərinin artdığı vaxtda Azərbaycanın sığorta şirkətləri üçün bu sahəyə diqqət də əsas prioritetlərdən biri olmalıdır.

**COP29-dan irəli gələn məsuliyyət tədbirləri...**

Hazırda Azərbaycan COP29 sammitini keçirməyə hazırlaşır və bir çox iqtisadi strukturlar, o cümlədən bank və maliyyə sektoru öz fəaliyyətlərində iqlim çağırışlarından irəli gələn yeni məhsullara üstünlük verir. Məsələn, bank sektoru son aylarda "yaşıl maliyyə" alətlərinin tətbiqi üçün xarici təcrübəni mənimsəyərək yeni həll planları müəyyən edib, "yaşıl" və rəqəmsal infrastrukturlarını gücləndirib. Bank sektoru ölkə iqtisadiyyatının və maliyyə sektorunun bu sahədə üzləşdiyi riskləri nəzərə alaraq öz fəaliyyətini qurur, Mərkəzi Bank ilə sıx əməkdaşlıq edərək dayanıqlı maliyyə prinsiplərinin risklərin idarə edilməsi və kreditləşmə təcrübələrinə inteqrasiyası üzərində çalışır. Ancaq sığorta sektoru bu prosesdən müəyyən qədər geridə qalır.

Məhz bu meyilləri nəzərə alan Mərkəzi Bank Azərbaycanda sığorta mexanizminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlayıb. Sənədə əsasən, Azərbaycanda iqlim dəyişiklikləri nəticəsində yaranan problemlərin həllində və karbon emissiyalarının azaldılmasında "yaşıl alətlər"dən biri kimi




dayanıqlı sığorta təminatının formalaşdırılması nəzərdə tutulur. Bu çərçivəyə əsasən, bərpa olunan enerji sığortası, iqlim riskinin sığortası, eko-avtosığortası və kənd təsərrüfatı sığortası kimi təşviqlərə xüsusi üstünlük verilməsi üçün müxtəlif tədbirlər görülücək.

*ELBRUS*

# Gürcüstanda seçkilərə iki gün qalmış...

## Qərb təhdid edir, Tbilisi təmkinli davranır

Azərbaycana qonşu və dost olan Gürcüstanda həyəcanla gözlənilən 26 oktyabr parlament seçkilərinə iki gün qalır. Ölkədə seçkiöncəsi mühit sabit olsa da, parlamentin tərkibinin sərt rəqabət şəraitində formalaşacağı ehtimal olunur. Bütövlükdə, seçkilərə 19 partiya qatılıb. 150 yerlik parlament proporsional üsulla (partiya siyahıları üzrə) seçilir. Qanunverici orqana düşmək üçün etibarlı səslərin minimum 5 faizini toplamaq tələb olunur. Hökuməti qanunverici orqanda azı 76 mandata malik partiya formalaşdırır. 2012, 2016 və 2020-ci illərin parlament seçkilərində "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası qalib gələrək hökumət qurub.

### Son dərəcə məsuliyyətli seçim anı

26 oktyabr Gürcüstan üçün sözün bütün mənalarında çox məsuliyyətli seçim anıdır. Bəhs olunan seçkilərin nəticələrinə uyğun olaraq yalnız palamentin yeni tərkibi müəyyənləşməyəcək, həm də ölkənin siyasi oriyentasiyası təsdiqlənəcək. Söhbət Gürcüstanın Qərbə, xüsusilə də Avropa İttifaqına (Aİ) inteqrasiyasının perspektivlərindən gedir. Qərb rəsmi Tbilisini öz yanında görmək istəyir. Lakin bu istəyin xoş mərama əsaslandığını söyləmək çətindir. Asılı və idarə olunan siyasi rejim və cəmiyyət qurmaq kollektiv Qərbin Gürcüstan siyasətinin əsas məğzini təşkil edir. Aydın məsələdir ki, kiçik və resursları olmayan Gürcüstanın Qərb üçün böyük iqtisadi önəmi yoxdur. Burada söhbət kollektiv Qərbin Gürcüstanda mövcudluğunu gücləndirməklə kəskin münasibətlərdə olduğu Rusiyaya qarşı Cənubi Qafqaz cəbhəsi açmaq niyyətindən gedir. Məlumdur ki, zamanında Şərqi Avropada Ukraynanı addım-addım Rusiya ilə müharibəyə sürükləyən və istəyinə çatan kollektiv Qərb indi əzəli rəqibinə qarşı ikinci cəbhəni Cənubi Qafqazda açmaqla bağlı planlar qurur. Müstəqil siyasət aparan, daim mehriban qonşuluq siyasətindən çıxış edən Azərbaycan belə planları özünə yaxın buraxmır və qətiyyətlə rədd edir. Rəsmi Bakı ölkənin qonşu dövlətlərə qarşı platformaya çevrilməyəcəyini dəfələrlə ən yüksək səviyyədə bəyan edib. Belə qətiyyətli mövqeyinə görədir ki, ABŞ, Fransa kimi Qərb dövlətləri və Avropa Şurası Parlament Assambleyası (AŞPA) kimi təsisatlar ölkəmizə münasibətdə qərəzli mövqe sərgiləyirlər. Fransa parlamentindən, ABŞ Konqresindən, AŞPA tribunalarından respublikamıza qarşı sanksiyaların tətbiq edilməsi çağırışlarının eşidilməsi bunun təsdiqidir. Ölkəmiz məhz suverenlik prinsipindən çıxış etdiyinə görə əsassız ittihamlara məruz qalır.

Hələlik Qərbin məkrli Cənubi Qafqaz planlarında yalnız saxta tarixi boyunca başqalarının himayəsi altında olmağa öyrəşmiş Ermənistan yer alır. Zamanında bu ölkə Rusiyanın forpostu idi və Moskvadan hərtərəfli dəstək alırdı. Moskvanın İrəvan üzərində güclü təsirləri hələ də qalsa da, Ermənistanın hazırkı siyasi rəhbərliyi Rusiyanın məlum səbəblərdən çətinliklərlə üzləşməsini fürsət bilərək Qərbə qucaq açır. Qərb də N.Paşinyan hökumətinin Rusiyaya münasibətdə nümayiş etdirdiyi dönüklüyü məmnunluqla qarşılayır. Belə ki, rəsmi İrəvanın dönüklüyü ABŞ, Fransa və Qərb təsisatları tərəfindən getdikcə artan siyasi, iqtisadi, hərbi dəstəklə mükafatlandırılır.

Gürcüstana gəldikdə isə, rəsmi Tbilisi də ölkənin milli maraqlarını əsas tutduğunu bəyan edir. "Gürcü Arzusu - Demokratik Gürcüstan" iqtidarı o mövqedən çıxış edir ki, ölkənin Avropa İttifaqına inteqrasiyası milli maraqların qorunması şəraitində reallaşmalıdır. Qeyd edək ki, son vaxtlaradək Gürcüstan-Qərb inteqrasiyası əhəmiyyətli dərəcədə irəliləmişdi. ABŞ-dən, Aİ-dən Gürcüstana davamlı şəkildə siyasi və iqtisadi dəstək göstərilir, vətəndaş cəmiyyətinin inkişafına böyük həcmlərdə maliyyə vəsaitləri ayrılırdı. Başqa şirnikləndirici vədlər də verilirdi. Hətta Gürcüstanın Aİ üzvlüyünə namizəd statusu müzakirə predmetinə çevrilmişdi. Görüntü yaradılırdı ki, Gürcüstanın Aİ-nin qapılarını açması elə də çətin olmayacaq.

Proseslər irəlilədikcə məlum oldu ki, Gürcüstan rəhbərliyinin milli maraqları önə çəkmək istəyi ilə Qərbə inteqrasiya siyasəti ziddiyyət təşkil edir. Daha dəqiq desək, Qərb belə yanaşmanı yaxına buraxmır. Münasibətlərdəki çatlar Gürcüstan parlamentində əvvəlcə "Xarici təsirin şəffaflığı haqqında", bunun ardınca isə sentyabr ayının 17-də "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanunların qəbul edilməsi ilə üzə çxdı. Gürcüstan hakimiyyəti "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbul olunmasını ölkənin milli maraqlarının qorunması zərurəti ilə əlaqələndirir. Qanunda xaricdən maliyyələşən müvafiq təsisatlara nəzarət mexanizmi nəzərdə tutulur. Bu nəzarət mexanizmi isə ilk növbədə şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədi daşıyır. Fəaliyyətlərini qanunla müəyyənləşdirilən prosedurlara uyğun qurmayan təsisatları ciddi cərimələr gözləyir. Eyni zamanda, Gürcüstan hakimiyyəti gələcəkdə vətəndaş cəmiyyəti təsisatlarının hökumətdən maliyyə alacaqlarının anonsunu edib və bu istiqamətdə müzakirələrə başlanıb. Aydın şəkildə görünür ki, bütün bunlar Gürcüstan cəmiyyətinin xarici təsirlərdən, indiki reallıqda Qərbdən asılılığının azaldılmasına hesablanan addımlardır.

Qərb isə bunu istəmir və bəhs olunan qanunu başqa izahlar altıında təqdim edir. Qərb o qənaətdən çıxış edir ki, "Xarici təsiri şəffaflığı haqqında" qanun Gürcüstanın siyasi oriyentasiyasını Avropadan Rusiyaya doğru dəyişmək məqsədilə qəbul olunub. Halbuki belə bir izahın əsası yoxdur. Bu, Qərbin növbəti riyakarlığıdır. Gürcüstan hakimiyyəti dəfələrlə bəyan edib ki, oxşar qanunlar həmçinin Fransada, ABŞ-də və digər ölkələrdə də qəbul olunub. Ancaq həmin ölkələrə irad tutulmur, Gürcüstan isə total ittihamlarla üzləşib.



### Gürcüstan-Qərb münasibətlərində yaranan çatlar

Qərb dairələri, həmçinin "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanuna münasibətdə də eyni kontekstdən çıxış edirlər. Onlar hesab edirlər ki, bu qanun "mətbuat və ifadə azadlığına ziddir". Arqumentləri də budur ki, yeni qanunvericilik ölkədə "LGBT+ mövzusunda sərbəst reportaj hazırlamaq imkanlarını məhdudlaşdırır". Maraqlıdır, Gürcüstan öz ərazisində ailə institutunu qorumağa yönəlmiş addımlar atırsa, Avropa nə üçün bu qədər narahat olur?

Gürcüstan Avropa strukturlarına, o cümlədən, Avropa Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatına (ATƏT), yaxud Avropa Şurasına ona görə üzv olmayıb ki, gəlib burada "LGBT+" hərəkatını, yaxud, "Radikal feminizm"i stimullaşdırsınlar, ailə institutunu dağıtsınlar. ATƏT-ə, AŞ-yə üzv olmaqda məqsəd ölkənin təhlükəsizliyinə təminat almaqdır, demokratik inkişaf yolunda dəstək qazanmaqdır. Bu gün ərazisi param-parça olmuş Gürcüstanın suverenliyinin təmin edilməsi üçün ATƏT və AŞ hansı real addımları atıblar? Avropa institutları "LGBT+" icmasının hüquqlarını qorumaq üçün göstərdikləri qətiyyəti Gürcüstanın ərazi bütövlüyünün, suverenliyinin bərpası məsələsində nə üçün sərgiləmirlər?

Məhz rəsmi Tbilisinin sözügedən iki qanunun qəbul edilməsindən geri çəkilmədiyinə görə ölkə Qərbdən gələn sərt təzyiqlərlə üzləşib. ABŞ yardımları dayandırdığını bəyan edib. Ağ ev rəsmi Tbilisini sankasiyalarla hədələyir. Oxşar addımlar Aİ tərəfindən də atılır. Bəhs olunan qanunların icrasının dayandırılmayacağı, mövcud siyasi kursun dəyişdirilməyəcəyi təqdirdə Gürcüstanın Aİ-yə gedən yolunun tamam bağlanacağının anonsu edilib.

Lakin Gürcüstan hakimiyyətinin Qərbdən gələn şantaj, hədə-qorxu qarşısında geri çəkilmək niyyəti yoxdur. "Bu gün Qərbin və xüsusən də Qlobal Müharibə Partiyasının Gürcüstana qarşı şantajı heç bir nəticə vermədi. Onların yalan və obyektivlikdən uzaq bəyanatları xalqda onlara qarşı qıcıq yaratdı. Vəziyyət onların əleyhinə dəyişdi". Bu sözləri hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının təsisçisi və fəxri sədri Bidzina İvanişvili qərbli tərəfdaşların Gürcüstanda demokratiyanın geri çəkilməsi barədə bəyanatlarını şərh edərkən söyləyib.

"Cəmiyyət düzgün olmayan və çox vaxt obyektivlik çərçivəsindən kənara çıxan bu cür bəyanatlardan daha da qıcıqlanır. Bizdə əsl demokratiya var", - deyə B.İvanişvili vurğulayıb.

### Şantaj nəticə vermir

O deyib: "Mən "Gürcü Arzusu"nun parlament seçkilərində uğur qazanacağına əminəm. Lakin, bu seçkilərdən sonra ölkəni çətin günlər gözləyir. Çünki Qərbdən olan tərəfdaşlar "ikinci cəbhə" açmaq üçün yenidən Gürcüstanı müharibəyə sürükləməyə çalışacaqlar".

Bəli, hədə, şantaj, müharibə ssenariləri qurmaq Qərbin gerçək simasıdır. Milli dövlətlər zaman-zaman bunu öz üzərlərində hiss edirlər. Bir vaxtlar Gürcüstan da Qərbin təhriklərinə və şirin vədlərinə aldandı. Nəticə yaddaşlardan silinməyib. Dost ölkə qısamüddətli müharibəyə səhnə oldu, torpaqlarını itirdi. İndi isə Gürcüstan Qərbin nə şirin vədlərini, nə də sərt ittihamlarını qəbul edir. Ölkə öz yolu ilə getmək və gələcəyini qurmaq istəyir. Əminik ki, dost ölkə iki gündən sonra öz seçimini düzgün edəcək.

*Mübariz FEYİZLİ*

# Fransa müstəmləkəçiliyinə son!

Bakı Təşəbbüs Qrupu (BTQ) Fransanın, Niderlandın ağır müstəmləkəçilik siyasətinin ifşasını və Afrikada, dənizaşırı ərazilərdə azadlıq uğrunda mübarizəyə qalxan xalqlara dəstəyini davam etdirir. Qurum bu məqsədlə müxtəlif beynəlxalq platformalarla sıx əməkdaşlıq edir. Oktyabrın 22-də BMT-nin Cenevrə ofisində İnsan Hüquqları Komitəsinin (İHK) 142-ci sessiyası çərçivəsində BTQ-nin təşkilatçılığı ilə "Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt və Fransız Müstəmləkəçiliyinin Nəticələri" adlı beynəlxalq konfrans keçirilib. Tədbirdə Fransa və Niderlandın əsarəti altında olan ərazilər - Martinika, Yeni Kaledoniya, Qvadelupa, Boner, Sen-Martin, Fransız Polineziyası, Mayot, Fransız Qvianası, Korsika, həmçinin Qayanadan parlamentarilər, qeyri-hökumət təşkilatlarının və siyasi partiyaların rəhbərləri, ekspertlər, elm xadimləri, beyin mərkəzlərinin tədqiqatçıları, habelə bir sıra ölkələrin BMT-nin Cenevrə bölməsində akkreditə olunmuş diplomatları iştirak ediblər.

## BTQ-nin davamlı mübarizəsi

Konfransda əvvəlcə müstəmləkəçilik sisteminə qarşı Bakı Təşəbbüs Qrupunun bir neçə ildir başlatdığı mübarizəni, eləcə də BTQ-nin fəaliyyəti, bu istiqamətdə təşkil etdiyi konfransları və tədbirləri əks etdirən videoçarx nümayiş olunub. Bu gün Fransanın, Niderlandın və bir sıra digər Avropa dövlətlərinin neokolonializm siyasətindən əziyyət çəkən ayrı-ayrı müstəmləkə ölkələri Azərbaycana ümid yeri kimi baxırlar ki, bu da təsadüfi deyildir. Ölkəmiz o mövqedən çıxış edir ki, öz sərvətlərinə sahiblənmək, milli kimliyini, ənənələrini, dilini, mədəniyyətini qorumaq hər bir xalqın hüququdur. Azərbaycan üzv olduğu Qoşulmama Hərəkatı (QH) vasitəsilə və müstəqil şəkildə Avropanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqlara mənəvi-siyasi dəstək verir. Müstəmləkəçilik siyasətinin qanlı izlərinin ifşasında Azərbaycanın təklifləri əsasında yaranan Bakı Təşəbbüs Qrupunun aktiv fəaliyyətinin önəmini xüsusi qeyd edə bilərik. 2023-cü ildən fəaliyyətə başlayan Bakı Təşəbbüs Qrupu artıq beynəlxalq platformaya çevrilib. Son zamanlar Bakı Təşəbbüs Qrupunun fəaliyyəti hökumətlərarası səviyyədə vurğulanıb. Oktyabrın 22-də Cenevrədə baş tutan tədbir BTQ-nin beynəlxalq səviyyədə təşkil etdiyi sayca 17-ci konfransıdır. Konfransın əsas məqsədinin Fransanın müstəmləkəçilik siyasətinin fəsadlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması olduğunu vurğulayan BTQ-nin icraçı direktoru Abbas Abbasov deyib: "Bakı Təşəbbüs Qrupunun əsas fəaliyyəti beynəlxalq əməkdaşlığı beynəlxalq hüquq çərçivəsində təşviq etməkdir. Bəzi Qərb ölkələrinin mediasında Bakı Təşəbbüs Qrupunun fəaliyyətinin sanki hansısa ölkəyə qarşı yönəlməsi kimi yanlış iddialara rast gəlinir. Bu, qətiyyən doğru deyil. BTQ-nin əsas missiyalarından biri kolonializm və onun yeni təzahürləri olan neokolonializmə qarşı mübarizədir. Bakı Təşəbbüs Qrupu bu müstəmləkəçilik siyasətini həyata keçirən ölkələrə qarşı beynəlxalq hüquq çərçivəsində həmin regionların xalqlarına dəstək verir".

Konfrans iştirakçıları Bakı Təşəbbüs Qrupunun müstəmləkə zorakılığı altında boğulan insanların səsini dünyaya çatdırmaq istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirib, buna görə təşəkkürlərini bildiriblər. Tədbirin sonunda iştirakçılar üzərində "Fransa müstəmləkəçiliyinə son!" yazılmış köynəklər geyinib və əllərində plakatlarla BMT-nin Cenevrə ofisinin binası qarşısında dinc aksiya keçiriblər.



## Kemi Seba yenidən mübarizə meydanında...

Bir neçə gün bundan əvvəl Fransa demokratiyasının gerçək mahiyyətini ortaya qoyan növbəti hadisə dünya gündəminə çevrildi. Söhbət Afrikanın müstəqilliyi və suverenliyi uğrunda hərəkatın simvolik liderlərindən biri kimi tanınan Kemi Sebanın saxlanılmasından və sonradan azadlığa buraxılmasından gedir. Xatırladaq ki, K.Seba oktyabrın 15-də Fransa xüsusi xidmət orqanları tərəfindən Parisdə həbsə alınmışdı. O, xarici ölkələrlə əməkdaşlıqda ittiham edilib. K.Sebanı bu ittihamla 30 ilədək həbs gözləyirdi. Lakin məhkəmədə bununla bağlı hər hansı fakt sübuta yetirilməyib və o, sərbəst buraxılıb.

K.Seba özünün geniş auditoriyasından istifadə etməklə Fransanın müstəmləkəçilik siyasətini ifşa edirdi. K.Seba Azərbaycanda da səfərdə olub. O, oktyabrın 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Afrikada Fransanın neokolonializm siyasətinə həsr edilmiş beynəlxalq konfransda iştirak edib. Tədbirdə çıxış edən Kemi Seba "neoliberalizm" adı altında Qərb dəyərlərinin bir çox ölkələrə zorla yeridildiyini bildirib. Elə K.Sebanın həbsi də onun Bakı konfransından geri qayıdışından sonra baş verib. Ancaq Fransa siyasi rəhbərliyi Afrika icmalarının, bütövlükdə beynəlxalq ictimaiyyətin təzyiqləri qarşısında geri çəkilməyə məcbur olaraq K.Sebanın sərbəst buraxılmasına qərar verildi.

Artıq K.Seba yenidən mübarizə meydanındadır. O, BTQ-nin Cenevrədə təşkil etdiyi konfransdakı çıxışında bu yaxınlarda Fransa polisi tərəfindən qanunsuz saxlanılması, polisin onunla kobud rəftar etməsi barədə məlumat verib. Bildirib ki, Fransa hökuməti onu 72 saat həbsdə saxlamaqla səsini boğmağa çalışıb. Ancaq o, bu mübarizədə geri çəkilməyəcək və sonadək mübarizə aparacaq.



## Fransanın və Niderlandın çoxsaylı müstəmləkə cinayətləri

Konfransda Fransanın, Niderlandın hələ də öz nəzarətlərində saxladıqları ərazilərdə törətdikləri saysız-hesabsız müstəmləkə cinayətlərindən geniş bəhs olunub. Yeni Kaledoniyanın FLNKS partiyasını təmsil edən müstəqil deputat Mlin Sakilia çıxışında Kaledoniyada dinc nümayişlərin işgəncəyə çevrildiyini, bütün ictimai fəalların Fransa polisi tərəfindən həbs olunduğunu deyib. Qeyd edib ki, sərbəst ifadəni və siyasi fikirləri boğmaq məqsədilə Fransanın milli, xüsusi və hərbi hüquq-mühafizə qüvvələrinin böyük qrupu Kaledoniyada yerləşdirilib. O, kanakların həbs olunduğunu, döyüldüyünü, ciddi sorğu-suala məruz qaldıqlarını, həbs olunanların qeyri-insani şəraitdə saxlanıldığını, ləyaqətlərinin tapdandığını vurğulayıb. Kemi Seba bu günədək 500-dən çox kanakın itkin düşdüyünü, 2800 nəfərin həbs edildiyi, 11 nəfərin öldürüldüyünü bildirib.

Niderland Krallığının müstəmləkəsi olan Boner adasının İnsan hüquqları təşkilatının prezidenti Davika Bissessar-Sau adada baş verən ciddi insan hüquqları pozuntularından danışıb. Diqqətə çatdırıb ki, adada gənc qızlar doğuma nəzarət inyeksiyalarına məruz qoyulur, bu zaman həddindən artıq dozadan istifadə edilir. Bu, yerli əhalinin sayının azalması üçün planlı şəkildə aparılır. "Həmçinin bu kiçik ada dünyanın adambaşına düşən ən böyük həbsxanalarından birinə çevrilib. Kiçik uşaqlar öz ailələrindən alınaraq niderlandlı baxıcılara verilir. Bu isə cəmiyyətimizin gələcəyinə hücum, onun məhv olunmasına yönəlib. Niderland bu müstəmləkə adasında yerli insanların tamamilə məhv olmaları üçün bütün vasitələrdən istifadə edir", - deyə o vurğulayıb.



## Fransa Avropa sosial hüquqlar xartiyasını pozur

Yelisey Sarayı özünün siyasətində üzv olduğu beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozur. Tədbirdə artıq müstəmləkəçilik vəziyyətində yaşamağın mümkün olmadığını, digər ölkələrdə insan haqlarına hörmət axtaran Avropa dövlətlərinin özlərinin müstəmləkə altında saxladıqları ərazilərdə bu hüquqlara riayət etmədikləri diqqətə çatdırılıb. Müstəmləkə altında olan ölkələrdəki ağır vəziyyət, yerli əhalinin səsinin boğulması, törədilən müstəmləkə cinayətləri ilə bağlı susqunluğa kəskin etiraz bildirilib. İştirakçılar BMT-ni və beynəlxalq ictimaiyyəti müstəmləkə haqsızlıqlarına qarşı mübarizəyə çağırıblar.

Konfransda söz alan Qviananın "Dekolonizasiya və sosial emansipasiya" partiyasının nümayəndəsi Sindi Polü Fransanın Avropa sosial hüquqlar xartiyasının müddəalarını müstəmləkəyə çevirdiyi ərazilərdə tətbiq etmədiyini bildirib. O, ölkəsində həyat şəraitinin çox acınacaqlı olduğunu vurğulayıb. Hər tərəfdən su ilə əhatə olunan Qvianada sakinlərin içməli suya çıxışının olmadığını, suyun civə ilə çirkləndirildiyini diqqətə çatdırıb. "Bu platforma vasitəsilə özünü "insan hüquqlarının qoruyucusu" adlandıran və dəyərlərindən biri "Azadlıq, bərabərlik və qardaşlıq" olan ölkənin - Fransanın fundamental hüquqlarımıza hörmət etməməsini qətiyyətlə pisləyirik", - deyə S.Polü diqqətə çatdırıb.

## Ağlasığmaz özbaşınalıqlara səhnə olan Martinika və Qvadelupa

Suveren Martinika uğrunda Demokratlar və Ekoloqlar Hərəkatının (MODEMS) üzvü Müryel Danyel müstəmləkəçiliyin bəşəriyyət tarixində dərin yara, milyonlarla insanın həyatını darmadağın edən və sivilizasiya adı altında sərvətləri talayan hökmranlıq sistemi olduğunu, təəssüf ki, hələ də davam etdiyini vurğulayıb. Bildirilib ki, digər müstəmləkə ölkələri kimi, Martinika da ICCPR prinsipləri ilə yerdəki reallıqlar arasında uyğunsuzluğun bariz nümunəsidir. Martinika iqtisadiyyatı hələ də Fransa əsarətindədir.

Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin Baş katibi (UPLG) Jan-Jakob Bisep Fransanın müstəmləkə ərazilərində, eləcə də Qvadelupada törətdiyi müstəmləkə cinayətlərindən danışıb, ölkəsinin ağlasığmaz cinayətlərə səhnə olduğunu qeyd edib. Deyib ki, quldarlığın ləğv edilməsinə baxmayaraq, müstəmləkə hakimiyyəti insanlarla hələ də qul kimi rəftar edir. O, eyni zamanda, Fransanın uzun illər boyu Madaqaskarda, Əlcəzairdə, Qvadelupada və digər ərazilərdə dəfələrlə törətdiyi kütləvi qırğınlardan danışıb.

***MÜBARİZ ABDULLAYEV***

# Ermənistanda keçirilən sorğunun gizli şifrəsi

## ABŞ-ın "çoxgedişli kombinasiyası"nın növbəti "səhifəsi"...

Müasir dünyanın şərtləri və çağırışları ildən-ilə dəyişir. Məsələn, güc mərkəzləri yürütdükləri imperialist siyasəti pərdələmək üçün müxtəlif vasitələrə əl atırlar. Bunlardan ən "populyarları" isə təbii ki, "humanitar effekt", "demokratik yardım", "ictimai inkişaf", "azad hüquqlar toplusu" və bu kimi "qlobal dəyər" şəklinə salınaraq məhdud maraqların təmininə yönəldilən siyasi proyeksiyalardır. Xüsusən Qərb "siyasi ənənəsi"ndə bu kimi "yumşaq güc" vasitələrinin qısa zamanda təsir mexanizminə çevrilməsinin şahidi oluruq.

## ABŞ-ın niyyəti...

Son dövrlərdə Cənubi Qafqaz regionuna münasibətdə Qərbin davranışlarına nəzər salsaq, eyni mənzərənin şahidi ola bilərik. ABŞ Cənubi Qafqazda özünün maraq dairəsini gücləndirmək və davamlı hala salmaq üçün bu kimi vasitələrdən istifadə edir:

- Ermənistanla "yaxın münasibətlər" toplusu görüntüsünü formalaşdırır;
- Ermənistanda "demokratikləşmə prosesinə yardım" manevrləri edir;
- Özünün "siyasi imicmeykerliyi"ni həyata keçirmək üçün fərqli fondların və institutların əli ilə Ermənistana maddi yardımlar göstərir.

Təbii ki, prosesin hədəfləndiyi nəticə özünü indidən bəlli edir - bu barədə az sonra. Hələlik isə Vaşinqtonun İrəvanda apardığı "işin" mahiyyətinə diqqət yetirək.

Sirr deyil ki, son aylarda ABŞ-ın var gücü ilə Ermənistanda ictimai rəyə təsir imkanları axtardığının şahidi oluruq. USAID vasitəsilə "yardımlar"ın edilməsi, ABŞ ordusunun təlimatçılarının İrəvana səfərləri, fərqli fondların Ermənistanda QHT sektoruna maliyyə yardımları ayrılması bu fəaliyyətin tərkib hissəsidir. Hazırkı mərhələdə isə paralel olaraq həm də ictimai rəyə təsir imkanları araşdırılır. Bunun üçün də il ərzində bir neçə adda fərqli statuslu, amma eyni mahiyyəti daşıyan "ictimai sorğular" keçirilir. Hədəf isə eynidir...

Qeyd edək ki, Ermənistanda keçirilən növbəti rəy sorğusu da Beynəlxalq Respublikaçılar İnstitutunun (BRİ) sifarişi ilə "Brevis" kompaniyası tərəfindən sentyabrın 13-dən 25-dək telefon müsahibələri vasitəsilə aparılıb. Sorğuda 1503 nəfər iştirak edib. Rəy sorğusunda ilk olaraq Ermənistanın siyasi hakimiyyətində və müxalifətində təmsil olunanlara "etimad" məsələsi qoyulsa da, əsas mahiyyət daha başqadır...

## Ermənistan üçün vacib olan...

Sorğunun maraqlı məqamlarından birini "Bu ölkələrdən hansını Ermənistan üçün daha vacib hesab edirsiniz?" sualına cavab təşkil edib. Birinci yerdə Fransa, ikinci yerdə İran, üçüncü yerdə ABŞ, dördüncü yerdə Hindistan, beşinci yerdə isə Avropa İttifaqı səs qazanıb - bu siyahıda Ermənistanla 30 il yaxın müttəfiq olmuş Rusiyanın adı yoxdur. Rəy sorğusunun məqsədlərindən biri aydın oldu - ABŞ-ın təhriki ilə KTMT və başqa platformalardan çıxmağı planlaşdıran Ermənistanda güya ictimai rəyin anti-Rusiya əhvalında olmasını faktoloji sübuta yetirmək istəyən ABŞ bu yola əl atır. Halbuki hər kəsə bəllidir ki, Ermənistan əhalisinin əksəriyyəti fərqli yanaşma sərgiləməkdədir. ABŞ-ın BRİ missiyasının məqsədi indidən Ermənistanın "tutduğu yol"a "işıq salmaqdır". Vaxtı çatanda isə "bunu ictimai rəy tələb edir" deyə arqument formalaşdırır...

## Reyqanın "demokratiyaya yardım" alətləri...

Qeyd edək ki, hər iki təsisatın yaranma tarixi eyni dövrə təsadüf edir - Soros Fondu 1984, BRİ isə 1983-cü ildə formalaşdırılıb. BRİ-nin rəsmi saytında qeyd edilir ki, Amerikanın 40-cı prezidenti Ronald Reyqanın 1982-ci ildə Britaniya parlamentindəki çıxışı zamanı dediyi sözlər institutun yaranmasına əsas səbəbdir. R. Reyqan həmin çıxışıyla ABŞ-ın dünyada azadlıq və demokratiya uğrunda mübarizə aparanlara dəstək kursunu elan etmişdi və 1983-cü ildə ABŞ Konqresi Reyqanın çağırışına cavab verdi: dünyada demokratiyanı dəstəkləmək haqda qərar qəbul edildi. Bu işi görmək isə Beynəlxalq Respublikaçılar İnstitutu, Demokratiyaya Milli Yardım Fondu, Beynəlxalq Özəl Müəssisələr Mərkəzi və Amerika Beynəlxalq Əmək Həmrəyliyi Mərkəzi (ACİLS) kimi qurumlar fəaliyyətə başladı. Medalyonun görünməyən üzü isə Soros Fondu oldu.

## ABŞ-ın sorğu manipulyasiyası - Azərbaycan kimdənsə güzəşt istəmir...

Ən maraqlı məqam isə Ermənistan ilə Azərbaycan arasındakı problemə yanaşmadır - belə ki, rəyi soruşulanların 56 faizi Azərbaycanla sülh müqaviləsini dəstəklədiklərini, 38 faizi bunun əleyhinə olduqlarını bildirir. Paralel olaraq respondentlərin 52 faizi konstitusiya islahatlarının əleyhinə, 24 faizi lehinə çıxış edir. Azərbaycana "növbəti güzəştlərə" gəlincə, 80 faiz iddia edir ki, güzəştə gediləcək heç nə qalmayıb. Yəni Azərbaycanla münasibətlərin normallaşması üçün mümkün olan maksimum güzəştə gedilib.

Kələfin ucu burada açılır. ABŞ bu yolla özünün marağında olan "yolu" ictimai rəy vasitəsilə gündəmə gətirir. Yaratdığı labirint Vaşinqtonu ələ verir. Çünki təzad ortadadır:

- Əgər Ermənistan əhalisinin 56 faizi (yəni çoxluğu) sülh tərəfdarıdırsa, niyə 52 faiz konstitusiya "islahatlarına" qarşı çıxır. Axı, Ermənistan ictimaiyyəti Azərbaycanın qəti mövqeyini bilir - Ermənistan Konstitusiyasında məlum qondarma iddialar aradan qalxmayınca sülh müqaviləsi imzalanmayacaq. Məntiqlə sülhü istəyənlər anlamalıdırlar ki, qondarma iddiaları aradan qalxmalıdır. Demək ki, ABŞ özünün "yarımçıq sülh" planını burada da "işə salır".
- Respondentlərin 80 faizinin "güzəştə gediləsi heç nə qalmayıb" "rəyi" də məhz buna ehtiva edir - Azərbaycan heç kimdən heç nə istəməyib ki, kimsə də bizə güzəşt etsin. Bizim tələbimiz hüquqi status daşıyır: Ermənistan Konstitusiyasındakı qeyri-hüquqi, əsassız iddianın ortadan qaldırılmasını istəyirik. Bu "güzəşt" deyil, Azərbaycanın haqlı tələbidir.

Beləliklə, bu rəy sorğusunun əsl mahiyyəti, keçirilmə səbəbi özünü "ələ verir". ABŞ bu vasitə ilə "çoxgedişli kombinasiyası"nı daha da stimullaşdırmağa çalışır. Bir tərəfdən, Azərbaycanı "yarımçıq sülh" müqaviləsini imzalamağa çağırır, digər tərəfdən isə Ermənistanın "ictimai rəyi"nin Konstitusiya dəyişikliyinə "etirazını" sorğularla "önə çıxarır".

## Sərhəd oyunu - artım proqnozu qarşısında məntiqsiz etiraz...

Sorğunun gizli şifrələrindən biri də Ermənistan əhalisinin 50 faizdən çoxunun Ermənistan-Türkiyə sərhədinin açılmasının "əleyhinə" çıxış etməsi məsələsidir. ABŞ bu "göstərici" ilə Zəngəzur dəhlizinin reallaşması məsələsinə "münasibətini" sərgiləyir. Necə ola bilir ki, sərhədin açılmasının faydaları arasında mümkün iqtisadi artımı 65 faiz göstərildiyi halda, respondentlərin 56 faizi sərhədin açılmasının əleyhinə "səs verir"? Hətta 46 faiz respondent sərhədin açılmasını "türklərin və azərbaycanlıların Ermənistana sərbəst gəlib-getməsinə səbəb olacaq təhlükə" sayır.

Beləliklə, ABŞ-ın Cənubi Qafqaz siyasətinin başbilənlərinin bu sorğu vasitəsilə özünün maraqlarını təmin etməsi faktı birmənalı şəkildə ortadadır.

## BRİ və Soros Fondu...

Bu sorğunun "sahibi"nin hansı mərkəzlərə və niyyətlərə qulluq etməsi hər kəsə bəllidir. Vaxtilə Gürcüstanda və eləcə də post-sovet məkanın fərqli nöqtələrində Birləşmiş Ştatların təsir agentləri şəbəkələri formalaşdırılmışdı - onların maliyyələşməsi isə Soros Açıq Cəmiyyət Fondu, ABŞ Milli Demokratiya Fondu (NED), Milli Demokratiya İnstitutu (NDI), Beynəlxalq Respublikaçılar İnstitutu və digər bu kimi təsisatlar əsasında tənzimlənirdi. Bu sırada Soros Fondu ilə Beynəlxalq Respublikaçılar İnstitutu arasındakı bağlılıq xüsusi diqqəti cəlb edir. Hər iki təsisat son illərə qədər Gürcüstanda fəal işbirliyi yaratmışdı. XXI əsrin ikinci onilliyinin ortalarında Cənubi Qafqaz "planlarında" yeni birgə dəyişiklik etmək qərarı vermişdilər. Paşinyanın "dəstəklənməsi" və bunun üzərindən regional "agentura şəbəkəsi mərkəzi"nin Ermənistana köçürülməsi planı hər iki tərəfin maraqlarına cavab verirdi.

## BRİ-nin məqsədi...

BRİ-nin və Soros Fondunun Ermənistandakı fəaliyyətinin genişləndirilməsi isə Gürcüstanla birbaşa əlaqəlidir. Regionda baş verən son proseslərdən sonra ABŞ özünə Cənubi Qafqazda Ermənistanı "arxa bağça" seçib. Əgər BRİ-nin "məramnaməsi"nə diqqət yetirsək, görərik ki, onlar yalnız Ermənistan daxilində "demokratik inkitşaf" işi aparmır, bütövlükdə, regionu qarışdırmaq üçün zəif bənd sayılan İrəvandan istifadə edirlər.

***P.İSMAYILOV***

# Türkiyə terrorla mübarizəni gücləndirir

**Türkiyə regionda, o cümlədən Yaxın Şərqdə sabitliyin və təhlükəsizliyin təmin olunması üçün mühüm təşəbbüslərlə çıxış edir. Uzun illərdir ki, Suriya böhranı da region üçün təhdid olduğundan rəsmi Ankara bu problemin tezliklə həllinin tərəfdarıdır. Suriyada qeyri-sabitlik, eləcə də PKK/YPG terrorçularının mövcudluğu Türkiyənin təhlükəsizliyi üçün problem olaraq qalır. Ona görə də, Ankara davamlı olaraq İraqla yanaşı, Suriya ərazisində də antiterror tədbirləri həyata keçirir. Bunun nəticəsində də xeyli sayda terrorçu zərərsizləşdirilib.**

## Ərdoğan: Türkiyənin gələcəyində terrora yer yoxdur

Bundan əlavə FETÖ terror təşkilatı da Türkiyənin daxilində böyük təhdidlərdən biridir. Dövlət bu terror qanadına qarşı davamlı mübarizə aparır. Oktyabrın 22-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada hakim Ədalət və İnkişaf Partiyasının funksionerləri qarşısında çıxışı zamanı bildirib ki, “Paralel dövlət” təşkilatı (FETÖ) terrorçularının təşkil etdiyi qanlı çevrilişin iştirakçılarına qarşı mübarizədə 250-dən çox ölkə vətəndaşı həlak olub. Onun sözlərinə görə, xalqa xidmət bəhanəsi ilə xalqı aldatmağa, gəncləri “manqurt”a çevirməyə çalışan hər kəsi şərəfsiz son gözləyir. Türkiyə dövlət başçısı 2016-cı il iyulun 15-də ölkədə hakimiyyətin silahlı ələ keçirilməsi cəhdinin qarşısını alan türk xalqının qəhrəmanlığını yüksək qiymətləndirib.

Prezident Ərdoğan əmin edib ki, FETÖ üzvlərinə qarşı qəti mübarizə bu cinayətkar təşkilat tamamilə dağılana qədər davam edəcək: “Türkiyənin bütün dövlət qurumları FETÖ ilə mübarizəyə cəlb edilib. Mübarizə həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda aparılır”. Türkiyə Prezidenti bazar günü ABŞ-da dünyasını dəyişən FETÖ terror təşkilatının lideri Fetullah Güleni “Vətən xaini” adlandırıb. “Bütün dünya Türkiyəyə xəyanət edənlərin sonunun şahidi oldu. Biz terrorçuların, quldurların və demokratiya düşmənlərinin qarşısında baş əymirik”, - deyən Ərdoğan əlavə edib ki, xarici dairələr və “beşinci kolon” nümayəndələri Türkiyəni idarə edə bilməyəcəklər. O bildirib ki, Türkiyənin gələcəyində terrora yer yoxdur: “Bunu hər kəs başa düşməlidir”.



## Terrorla mübarizənin vacib komponenti

Yeri gəlmişkən, Türkiyənin xarici işlər naziri Hakan Fidan da ölkəsinin terror təşkilatlarına qarşı mübarizəni davam etdirmək əzmində olduğunu deyib. O, Ankarada latviyalı həmkarı Bayba Bayje ilə birgə brifinqdə bu bəyanatla çıxış edib. Fidanın sözlərinə görə, terrorla mübarizənin vacib komponenti beynəlxalq əməkdaşlıqdır. “Biz Latviyadan qanlı “Paralel dövlət” təşkilatına (FETÖ) qarşı mübarizə də daxil olmaqla, fəal dəstək və konkret addımlar gözləyirik”, - deyə türkiyəli nazir bildirib. Hakan Fidan Ankaranın NATO müttəfiqləri, o cümlədən Latviya ilə birgə müdafiə layihələri həyata keçirməyə hazır olduğunu da qeyd edib.

Məlumdur ki, bəzi Qərb və Avropa dövlətləri terror təşkilatlarına dəstək verir. Bu da rəsmi Ankaranın haqlı narazılığına səbəb olur. Hələ 2022-ci ildə Finlandiya və İsveçin NATO-ya üzvlük məsələsi gündəmə gələndə Türkiyə bu ölkələr qarşısında bir sıra şərtlər qoymuşdu. Türkiyə İsveç və Finlandiyadan terrorçu hesab etdiyi təşkilatların üzvlərinin parlamentlərə qəbulunu dayandırmağı, həmçinin İŞİD terror qruplaşması ilə mübarizə adı altında kürd birləşmələrinə maliyyə dəstəyini dayandırmağı tələb etmişdi. Eyni zamanda, Kürdüstan Fəhlə Partiyasının (PKK) rəhbərliyi ilə təmasdan qaçmaq, ölkələrində Türkiyədə qadağan olunmuş Fətullah Gülənin təşkilatının üzvlərinin fəaliyyətini dayandırmaq Türkiyənin tələbləri sırasında idi. Türkiyə həmin ölkələrdə qadağan edilmiş təşkilatların axtarışda olan üzvlərinin ekstradisiyası prosedurunun sürətləndirilməsini, eləcə də “Türkiyənin təhlükəsizliyinə qarşı hər hansı hərəkətə” dəstəyi dayandırmağı tələb etmişdi. Rəsmi Ankara İsveç və Finlandiyanı terrorizmlə mübarizədə Türkiyə ilə müntəzəm məsləhətləşmələri və sıx əməkdaşlığı dəstəkləyəcək mexanizm yaratmaq üçün birgə təşəbbüslə çıxış etməyə dəvət edib. Eyni zamanda, Türkiyə Skandinaviya ölkələrində terror təşkilatlarının pul axınının kəsilməsini, onların bank hesablarının bağlanmasını tələb etmişdi. Bu tələblər yerinə yetirildikdən sonra Türkiyə hər iki ölkənin alyansa üzv olmasına razılıq verdi.

## Terrorla mübarizədə yeni mərhələ

Bununla belə, Türkiyə terrorla mübarizəni sona qədər davam etdirməkdə qərarlıdır. Davamlı olaraq türk ordusu İraq və Suriya ərazisində antiterror əməliyyatları həyata keçirir. Eləcə də, Türkiyə ilə Suriya arasında terrorçuluğa qarşı birgə əməkdaşlığın güclənməsi də gözlənilir. Birgə əməkdaşlıq çərçivəsində bu istiqamətdə müvafiq addımların atılması planlaşdırılırdı. Lakin bir sıra ekspertlər hesab edirlər ki, Türkiyə və Suriya arasında artan əməkdaşlıq ABŞ-nin regiondakı təsir imkanlarını zəiflədəcək. Belə bir şəraitdə üçüncü qüvvələr Türkiyə və Suriya arasında yaxınlaşmanın qarşısını almağa çalışır. Bir neçə ay öncə Suriyanın şimalında türk hərbçilərə qarşı hücumların edilməsi də bunun göstəricidir. Son vaxtlar ABŞ-ın Suriyanın şimalındakı PKK, YPG terror qruplaşmalarına hərbi texnika, o cümlədən hava hücumundan müdafiə sistemləri göndərməsinə dair məlumat yayılır. “ABŞ regiondakı bazalarının havadan müdafiəsini təmin etmək məqsədilə əraziyə “Avenger Stinger” havadan müdafiə sistemləri göndərib. Müttəfiqimiz ABŞ-dan gözləntimiz İŞİD-lə mübarizə bəhanəsi ilə terror təşkilatı PKK/YPG-yə verdiyi bütün dəstəyi dayandırmasıdır. Gözləntimiz odur ki, ABŞ bir terror təşkilatı ilə əməkdaşlıqla başqa birinə qarşı mübarizə aparılmasının doğru olmadığını anlasın və terrorla mübarizəmizə səmimi dəstək versin”,-deyə Türkiyə Müdafiə Nazirliyi bir müddət əvvəl bəyan etmişdi. Baş verənlərə rəğmən perspektivdə Türkiyənin antiterror əməliyyatlarını daha da gücləndirməsi gözləniləndir. Ankara bu istiqamətdə tərəfdaşlarla əməkdaşlığı genişləndirə bilər.

***Nardar BAYRAMLI***

**P.S. Türkiyənin daxili işlər naziri Ali Yerlikaya Ankarada TUSAŞ müdafiə sənayesi şirkətində terror aktı törədildiyini bildirib.**

**Terror aktı paytaxtın Kahramankazan rayonunda baş verib.**

**Yerlikaya sosial şəbəkələrdəki paylaşımında yazıb: “Təəssüf ki, ölənlər və yaralılar var”.**

**Bu arada, NTV telekanalı hüquq-mühafizə orqanları əməkdaşları ilə terrorçular arasında atışma baş verdiyini bildirib.**

# 1 ildə 11-ci səfər

## Blinken yenidən Yaxın Şərqdə...

Yaxın Şərqdə gərginliyin artdığı son bir ildə ABŞ-ın regiona diqqəti daha da artıb. Ard-arda səsləndirilən dəstək bəyanatları, əməli addımlar, silah-sursat təsisatı və bu kimi fəaliyyətlər Vaşinqtonun məsələdəki mövqeyinə aydınlıq gətirir - nəticə etibarı ilə, ABŞ regionda ən yaxın müttəfiqini var gücü ilə dəstəkləyir. Xüsusilə, son aylarda İsrailin “Hizbullah” lideri Həsən Nəsrullahı, onun qohumu və mümkün varisi Haşim Safiəddini və bir sıra başqa komandirlərini məhv etməsi Vaşinqtonu bölgəyə daha diqqətlə fokuslayıb.

### 5 günlük turne...

ABŞ Dövlət katibi Antoni Blinken İsrailə növbəti səfərini gerçəkləşdirib. Bu, 2023-cü il oktyabrın 7-də bölgədə vəziyyətin gərginləşməsindən sonra onun Yaxın Şərqə 11-ci səfəridir. Səfər çərçivəsində Blinkenin mühüm görüşləri nəzərdə tutulurdu. Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller bildirmişdi ki, Blinkenin Yaxın Şərq turu oktyabrın 21-dən 25-dək davam edəcək. Dövlət katibi səfər samanı Qəzza zolağında müharibənin dayandırılmasının, bütün girovların azad edilməsinin və Fələstin xalqının əzabının yüngülləşdirilməsinin vacibliyini, həmçinin İsrail ilə “Hizbullah” arasında münaqişənin diplomatik həllinin zəruriliyini müzakirə etmək niyyətindədir.



### Görüləsi iki iş var...

Blinken Baş nazir Netanyahu ilə görüşdən sonra tərəfləri İsrailin Qəzza zolağında HƏMAS mövqelərinin əhəmiyyətli hissəsinin vurulması və qruplaşmanın lideri Yəhya Sinvarın zərərsizləşdirilməsindən sonra müharibənin dayandırılması ilə bağlı yaranmış fürsətdən istifadə etməyə çağırıb. Blinken deyib ki, İsrail artıq HƏMAS-ın hərbi qüvvə kimi tamamilə məhv edilməsi və Sinvar da daxil olmaqla rəhbərliyinin əksəriyyətinin öldürülməsi məqsədlərinə nail olub. Artıq Qəzzada girov götürülmüş insanları evlərinə qaytarmağa və döyüşlərə son qoymağa çalışılmalıdır: “Qazanılan nailiyyətləri davamlı strateji uğura çevirməyin vaxtıdır”. Görüləsi iki iş var: girovları evə qaytarmaq və bundan sonra nə olacağını anlayaraq müharibəni bitirmək”.

### Ər-Riyada getməmişdən öncə...

ABŞ Dövlət katibi İsraili İranın 1 oktyabr raket hücumuna cavab olaraq “daha çox eskalasiyadan” çəkinməyə çağırıb. “İsrailin daha da gərginləşməyə səbəb olmayacaq şəkildə cavab verməsi lazımdır”, - deyə o bildirib.

Yaxın Şərq turnesi çərçivəsində ilk dayanacaq kimi İsraili seçməsinə gəlincə isə Blinken İsraildən sonra Səudiyyə Ərəbistanına gedib. Ər-Riyada getməzdən öncə Blinken əlavə edib ki, İsrail Səudiyyə Ərəbistanı ilə münasibətləri normallaşdırmaq üçün “inanılmaz fürsətdən” istifadə etməlidir.

Bu arada İordaniya Xarici İşlər Nazirliyi Blinkenin çərşənbə günü planlaşdırılan İordaniya səfərinin heç bir səbəb və ya yeni tarix göstərilmədən təxirə salındığını bildirib. Bundan başqa Blinken həftənin cümə günü Şərq səfərini yekunlaşdırdıqdan sonra Londonda ərəb ölkələrinin xarici işlər nazirləri ilə görüş keçirəcək.

Siyasi mütəxəssislərin fikrincə, Blinkenin bu səfərində əsas mövzu HƏMAS lideri Sinvarın öldürülməsi olub. Vaşinqton Sinvarın ölümü ilə sülh danışıqlarına yeni təkan verilə biləcəyinə ümid edir. Bu isə ABŞ-ın dövlət olaraq milli maraqlarına, eyni zamanda, Bayden adminstrasiyasının “sülhpərvər mövqeyi” olaraq 5 noyabr seçkilərinə təsir göstərə bilər. Dövlət katibinin səfəri prezident seçkiləri öncəsi Yaxın Şərqdə sülhü təşviq etmək üçün son böyük səy hesab olunur. Sülhün yaranmasının paralel olaraq Bayden administrasiyasının bölgədəki nüfuzuna da müsbət təsir etməsi gözlənilir. Vaşinqton, həmçinin açıq kontekstdə Tehranın oktyabrın 1-də reallaşdırdığı raket hücumuna görə İsrailin qisas almasının qarşısını önləməyə çalışır. Xatırladaq ki, İsrail İranın raket və dron hücumuna “dəqiq və öldürücü” cavab vəd edib.

### İran-İsrail müharibəsi başlamasın deyə....

İran tərəfi elan edib ki, İranın İsrailə raket hücumu “Hizbullah” və HAMAS rəhbərlərinin, eləcə də “Qüds” hərbi qüvvələrinin komandanının öldürülməsinə cavabdır. İranın xarici işlər naziri Abbas Əraqçı çərşənbə axşamı xəbərdarlıq edib ki, əgər İsrail İran İslam Respublikasına hücum edərsə, Tehran “eyni şəkildə cavab verəcək”. Əraqçı əlavə edib ki, İran qoşunları regionda Amerika bazalarının fəaliyyətini yaxından izləyir.

***S.İSMAYILZADƏ***

# Vasitə məqsədi doğrultmayanda

## Fridrix Şillerin “Qaçaqlar” dramı haqqında

**əvvəli ötən saylarımızda**

Qoca nökər Daniel gecə vaxtı şələ-küləsini yığıb, bütün şüurlu ömrünü keçirdiyi qəsrdən həmişəlik ayrılmağa hazırlaşır. Bu vaxt Frans hövlnak özünü yetirib onu keşiş dalınca göndərir. Gənc qraf yuxusunu qarışdırıb, yuxuda ona məhşər əzabı əyan olub. Bu zamanacan Allaha, dinə istehzayla yanaşan Fransın indi Tanrı müdaxiləsinə, keşiş yardımına ehtiyacı yaranıb. Pastor ona ata, qardaş qətlinin ən ağır günahlar olduğunu deyəndə Frans başa düşür ki, ruhu cəhənnəmlikdir. Karlın qaçaqları qəsrə od vursalar da, Fransı sağ ələ keçirə bilmirlər - o özünü nazik qatmayla boğur.

Qaçaqlara qoşulub meşəyə gedən Amaliya adaxlısı Karla sarılanda qraf fon Moor sevimli oğlunun quldur dəstəsinin başçısı olduğunu anlayır. Qoca qraf buna dözməyib canını tapşırır. Amaliya isə sevgilisinin yedəyində hər yola getməyə hazırdır, fəqət Karlın qaçaqlarla əhd-peymanı var, cinayət aləminin qanunlarına görə, o, andını poza bilməz. Amaliya xoşbəxtliyinin baş tutmayacağını anlayanda Karldan ölüm istəyir. Karl xəncəri sevgilisinin köksünə saplayır, bununla da öz ölümünə cığır açmış olur.

Qaçaqlar onu yola davam eləməyə səsləsələr də, Karl Moor nifrət bəslədiyi başıpozuq kütlədən ayrılmaq qərarına gəlir. Yoldaşları onu sərsəmlikdə, şan-şöhrət divanəsi olmaqda suçlayırlar. O isə bağışlanmaz günahlarını ömrü çatdığı qədər suya çəkmək fikrindədir. İntihar çıxış yolu, həm də məqbul yol deyil - günahı günahla yumazlar. Onun başına böyük məbləğdə pul qoyulub, həmin pul onun yerini deyənə, onu təhvil verənə çatacaq. Daxmasında on bir tifil bəsləyən yoxsul muzdura bu, çox böyük kömək olacaq...

***

Karl Moor ədalət sorağına çıxan anarxist, həyata yeni nırx qoymağa çalışan qəhrəmanlıq təşnəsi, şücaət xəstəsidir. Onun faciəsi bundadır ki, qəlbinin saf diləklərini qol gücünə gerçəkləşdirmək istəyir, ona görə də yaxşı məqsədlə tutduğu əməllər cinayətə çevrilir, xoş niyyətlə atdığı addımlar qana bulaşır. Başqa sözlə, Karl Moorun seçdiyi vasitə onun ülvi arzularını, ali məqsədlərini doğrultmur, onlara uyğun gəlmir. Nəticədə sosial təhlükəyə, ictimai bəlaya müqavimət göstərən xilaskar güc özü ən böyük təhlükəyə çevrilir, bir günahkarı qurtarmaq üçün səksən günahsız insanı bada verirsən. Mənəviyyatın pozulmaz qızıl qanunlarından biri bu zaman bir daha təsdiqini tapır: qanı qanla yumaq, şəri şərlə sağaltmaq mümkün deyil. Ədalətə cinayət yoluyla çatılmaz, həqiqətə yalan dəlillərlə yetişilməz:

“Eşidin məni, mənim yırtıcı niyyətlərimin xəbis icraçıları! Bu andan etibarən mən sizə ataman deyiləm. Həya, qorxu içində mən bu qanlı tacı başımdan atıram. Bu günəcən mənim hökmümə boyun əyib cinayət toxumu səpmisiniz, şər əməllər törətməklə xaliqin evini viran qoymusunuz, üstəlik, bu işlərdə özünüzü haqlı bilmisiniz...

Mən axmaq dünyanı cinayətlə islah eləmək, qanunsuzluqla qanun yaratmaq xülyasında olmuşam. Elə bilmişəm qisas bayrağı, ədalət qılıncı qaldırıram. Əslində isə Tanrı iradəsinə qarşı çıxmışam... Rəhm elə, xudaya, sənin divanından əvvəl divan qurmaq istəyən bu tifilə rəhmin gəlsin! Divan da sənindir, qisas da! Sən insan gücünə möhtac deyilsən”.

Karl əgər antik çağın despotlarını, tiranlarını, cəlladlarını yox, müdriklərini, filosoflarını örnək götürmüş olsaydı, ondan yaxşı bir epikürçü, ya da stoik çıxardı. Onda onun anarxizmi bəhrə vermiş olardı, çün zahirən epikürçülərlə stoiklər bir-birinə düşmən olsalar da, hər ikisi asketizm məktəbi, hər iki tərəf tənhalığıyla kütləyə meydan oxuyan, səsini götürüb xordan çıxan anarxistlər ordusudur.

Axır-axırda Karl Moor qədim stoiklərin toplaşdığı məşhur limana yan almış kimi görünür, hərçənd xristian ehkamlarının içində böyümüş biritək stoisizmin zəruri halda məqbul saydığı intihardan vaz keçir. Ancaq onun özünü yoxsul muzdurun əliylə ədalət divanına təhvil verməsinin özü də bir intihardır. Onu edam eləyəcəklər; yox, əgər könüllü təslim olduğuna, ləyaqət nümunəsi göstərdiyinə görə aman, möhlət versələr, zindana atmaqla kifayətlənsələr, həbsdən çıxandan sonra Karl mütləq monastıra çəkiləcək, güclə, silahla, qoşunla çata bilmədiyi diləyinə orada əliyalın yetişəcək. Zatən tənhalıq cəngavəri rahib özü də dünyanın oturuşmuş nizamını pozan bir anarxistdir.

O ki qaldı Frans Moora, onun öz taleyi yoxdur; o zavallı bu həyata qardaşının kölgəsi kimi, həm də ondan azacıq sonra gəlib. Ona artıq adam da demək olar. Onun gözü özgəsinin qabında, özgə çəpərinin o üzündədir. Frans əgər özüylə əlləşib öz baxtının sorağına çıxsaydı, qardaşının qabından oğurlamağa çalışdığı təamlardan qat-qat ləziz nemətlər də tapa bilərdi. Ancaq müəllif ona heç bir şans, qismət verməyib, təpədən-dırnağa şeytana mübtəla olmuş bu fiqurun ruhu yoxdur, sadəcə, quru, yalın, köksüz-köməcsiz ağlı, soyuq, qansız məntiqi var. Bu ağıldan gələcəkdə Dostoyevskinin əxlaqi ehkamları, mənəvi qanunları şübhə altına alan rasional qəhrəmanlarına da pay düşəcək.



Həm də təkcə Dostoyevskinin yox. Çağdaş dünyanın mənzərəsinə diqqətlə göz yetirsək, görərik ki, Şillerin yaratdığı tiplər bu gün də aktualdır.

***F.Uğurlu***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# 79 yaşlı təşkilat!

## 24 oktyabr BMT günüdür...

İkinci Dünya Müharibəsinin tam şəkildə bitməsinin ardından, yəni 1945-ci ilin payızında yeni dünya düzənin formalaşdırılmasına ehtiyac yaranmışdı. Fərqli siyasi gündəmlər, fərqli siyasi baxışlar və siyasi mövqelər bunu zəruri edirdi. Bu dəfə ən güclülər bir masa arxasına toplanaraq dünyada sabitlik və təhlükəsizliyin təmin olunmasına dəstək nümayiş etdirəcəkdi. Nəticədə 1945-ci il oktyabrın 24-də dünyanın ən güclü 50 dövləti tərəfindən yaradılmış “Ümumdünya Hökuməti” - Birləşmiş Millətlər Təşkilatı (BMT) zərurətdən doğaraq yeni dönəm üçün dünyada sülh və sabitlik, müzakirə və nəticə, hətta bəzi məqamlarda təsir və təzyiq funksiyasını yerinə yetirmək üçün yaradıldı.

**50 dövlət nümayəndəsinin imzaladığı Nizamnamə**

Ötən 79 ildə sərhədlərini genişləndirərək 193 ölkəni, 500 asılı ərazini, Antarktida materikini, Qərbi Səhranı, Dünya okeanını, bir sözlə bütünlükdə yer kürəsinin 80 faizini öz mandatına qatan BMT bu gün siyasi münasibətlər sisteminin ən böyük, ən geniş siyasi təşkilatına çevrilib. Baş qərargahı Nyu-York şəhərində yerləşən BMT-nin əsas missiyası beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. Bu yola mayak tutan əsas istinad nöqtəsi isə 1945-ci ilin 26 iyununda San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanan və 1945-ci ilin 24 oktyabrında qüvvəyə minən BMT Nizamnaməsi oldu. Bu Nizamnamə təşkilatın dünyaya baxışını, ortada olan problemlərə yanaşmaları, daxili qaydaları müəyyənləşdirməklə ötən 10 ilə yaxın dövr üçün BMT-nin idarə edilməsində əsas rola çevrilib.

**Qurumun əsas vəzifələri**

BMT-nin əsas orqanları BMT Baş Məclisi, BMT Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı UNESCO, Uşaq Fondu UNICEF, BMT-nin İnkişaf Proqramı BMTİP və BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK) kimi inkişaf, humanitar yardım və insan hüquqlarının müdafiəsi sahələrində fəaliyyətləri həyata keçirən ixtisaslaşmış təşkilatları mövcuddur. Qurumun əsas vəzifələrinə isə münaqişələrin sülh yolu ilə tənzimlənməsi və kollektiv tədbirlər qəbul etməklə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması, eyni zamanda, xalqın özünüdərketmək və bərabərlik prinsipinə hörmət etmək əsasında ölkələr arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi daxildir. Bundan başqa, beynəlxalq humanitar, mədəni, sosial, iqtisadi xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirmək qurumun ali məqsədlərindən biri kimi müəyyənləşdirilib.

**Təşkilatın yenilənməsinə ehtiyac var...**

Təssüfləndirici haldır ki, 20-ci əsrin sonu, 21-ci əsrin əvvəlində BMT-nin funksionallığının zəiflədiyinin şahidi oluruq. Belə ki, son dövrlərdə artan kataklizmlərin, qlobal təhlükəsizliyə açıq təhdidlərin fonunda BMT-nin susqunluğunun müşahidə olunması adekvat sayıla bilməz. Aktiv müharibələrin getdiyi, günahsız insanların öldürüldüyü bir zamanda BMT-nin fəal müdaxiləsi nəzərə çarpmır və əksinə, kənardan izləyici funksiyasında dayanmağa üstünlük verilir. Əvvəlllər də BMT TŞ-nin bəzi qərarlarının icrasına selektiv yanaşmaların şahidi olmuşuq. Məsələn, Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı qəbul edilən 4 qətnamə 30 ilə yaxın icra edilmədi və Azərbaycan bu qətnamələrin icrasını öz üzərinə götürdü. Beləliklə, bu kimi hallar 79 yaşlı BMT-nin yenilənməsinə ehtiyacın duyulduğunu göstərir.

Xatırladaq ki, Azərbaycan BMT-yə 1992-ci il, martın 2-dən etibarən qoşulub. Həmin il mayın 6-da Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılıb.

*Yeganə BAYRAMOVA*

# Bəşəriyyətin məğlub etdiyi patogen...

İnsanın sinir sisteminə təsir edən, əzələ toxumasının iflicinə, ölüm və ya əlilliyə səbəb olan ən ağır virus xəstəliklərindən biri poliomielit sayılır. Bu virusa adətən 15 yaşa qədər uşaqlar, nadir hallarda isə böyüklər yoluxa bilər. Ən çox isə 5 yaşadək uşaqlar poliomielitdən əziyyət çəkirlər.

Ancaq zaman keçdikcə bəzi mütəxəssislər poliomielitlə bağlı nikbin fikirlər söyləməkdədirlər. Onların fikrincə, poliomielit bəşəriyyətin demək olar ki, məğlub etdiyi patogendir. Bəlkə də bir neçə ildən sonra çiçək xəstəliyi kimi yer üzündən yox olacaq. Lakin hələlik xəstəliyin yayılma halları yenə də qeydə alınır. Bunlar əsasən yoxsul ölkələrdə təcrid olunmuş yoluxma hallarıdır. Ancaq vəziyyət öz axarına buraxılarsa, yenə yüz minlərlə yoluxma riski ilə üzləşə bilərik.

**Poliomielit nədir?**

Poliomielit sinir sisteminə təsir edən kəskin yoluxucu viral xəstəlikdir. Bu səbəblə geri dönməz süst parezi və iflic əmələ gələ bilər. Bu, virus onurğa beynin motor neyronlarını yoluxdurduqda baş verir. Nadir hallarda tənəffüs əzələlərinin işinə cavabdeh olan neyronlar təsirlənir.

Bu gün dünyanın əksər ölkələri poliovirusdan azad hesab olunur. Avropada və ABŞ-da son poliomielit epidemiyası 1988-ci ildə qeydə alınıb. Kütləvi peyvənd sayəsində xəstələnmə hallarını (99%-dən çox) kökündən azaltmaq mümkün olub. Xəstəliyin təcrid olunmuş halları Əfqanıstan, Nigeriya, Suriya, Anqola, Hindistan, Pakistan və bəzi digər ölkələrdə qeydə alınıb.

**Mübarizə aparılmasa, 10 ildən sonra...**

Ümumdünya Səhiyyə Təşkilatı poliomielit ilə bağlı bəzi faktları qeyd edib: Çox vaxt poliovirus 5 yaşdan kiçik uşaqlara təsir göstərir. Hər 200-cü infeksiya halı geri dönməz iflicə gətirib çıxarır. İflic olan insanların 5-10%-də tənəffüs əzələlərinin iflici inkişaf edir ki, bu da ölümlə nəticələnir. Poliovirusun yayılması riski tamamilə aradan qaldırılana qədər qalır. Poliomielit virusu ilə mübarizə aparılmasa, 10 ildən sonra xəstələrin sayı yenidən 200 min və ya daha çox ola bilər. Poliomielit peyvəndi ümumilikdə 16 milyondan çox iflicin qarşısını alıb.

**Xəstəliyə səbəb olan amillər**

Xəstəliyə poliomielit virusu səbəb olur. Hal-hazırda poliovirusun üç məlum serotipi var: PV1, PV2 və PV3. Ən çox yayılmış serotip PV1-dir. PV2 variantı sonuncu dəfə 1999-cu ildə qeydə alınıb, 2015-ci ildən isə tamamilə məhv edilmiş hesab olunur. Eyni aqibət sonuncu dəfə 2012-ci ildə qeydə alınan PV3 serotipinə də aiddir. 2019-cu ildə onun tamamilə məhv edildiyi elan edilib.



Polioviruslar xarici mühitə davamlılığı ilə seçilir. Suda 100 günə qədər, nəcisdə isə 6 aya qədər aktiv qalırlar. Belə viruslar qurudulmaqla və dondurulmaqla öldürülmür. Onlar mədənin aqressiv mühitində də sağ qala bilirlər. Poliovirus istilik, ultrabənövşəyi işıq və kimyəvi dezinfeksiya ilə məhv edilə bilər.

**İki növ peyvənd istifadə olunur**

Əksər xəstəliklərdə olduğu kimi, poliomielitlə mübarizədə də peyvənd ən effektiv vasitələrdən sayılır. Belə ki, bu virusla mübarizədə iki növ peyvənd var: Ağızdan poliomielit peyvəndi (OPV). Bu, ağız damcısıdır, zəifləmiş virusu olan canlı vaksindir. OPV xəstəliyin yayılmasına nəzarət etmək və müntəzəm immunizasiya üçün istifadə olunur. İnaktivləşdirilmiş poliomielit peyvəndi (IPV). Bu isə adi immunizasiya üçün istifadə edilən injeksiyon peyvəndidir.

**Ölkəmizdə 29 ildir ki, poliomielit qeydə alınmayıb**

Məlumata görə, Azərbaycanda 1995-cı ildən sonra poliomielit xəstəliyi qeydə alınmayıb. Ölkəmiz 2002-ci ildə poliomielitdən azad region statusunu alıb. Lakin bütün dünyada poliomielit virusu tam ləğv edilməyənə qədər həmin xəstəliyə yoluxma təhlükəsi qalır. Ölkəmizdə Səhiyyə Nazirliyinin tibb müəssisələrində bütün uşaqlara poliomielitə qarşı peyvənd dövlət hesabına edilir. Poliomielitə qarşı peyvənd uşağın 4-7-ci günlüyündə, sonra 2, 3, 4 və 18 aylığında aparılır. Hər uşaq 2 yaşınadək həmin peyvəndin beş dozasını qəbul etməlidir.

Qeyd edək ki, bu gün Ümumdünya Poliomielitlə Mübarizə Günüdür. Tarix olaraq oktyabrın 24-nün seçilməsi heç də təsadüfi deyil. Belə ki, bu gün poliomielitə qarşı tapılan peyvəndin müəllifi, Amerika epidemioloqu və virusoloqu Conas Solkun doğum günü ilə əlaqəlidir

*Yeganə BAYRAMOVA*

*İdman*

# Gimnaziadada iştirak edəcək idmançılarımızın yolasalma mərasimi keçirilib






Bəhreynin paytaxtı Manamada keçiriləcək Gimnaziada İdman Oyunlarında iştirak edəcək Azərbaycan təmsilçilərinin yolasalma mərasimi baş tutub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda baş tutan tədbirdə media nümayəndələri, azarkeşlər və idmançıların yaxınları iştirak ediblər.

Yarışlarda 26 növ üzrə ümumilikdə 3687 idmançı mübarizə aparacaq. Azərbaycanı Gimnaziadada 160 idmançı təmsil edəcək. Oyunlar oktyabrın 24-dən 30-dək təşkil olunacaq.

Qeyd edək ki, Azərbaycan komandasının Gimnaziada İdman Oyunlarındakı bayraqdarları bəlli olub.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, yarışın açılış mərasimində Azərbaycanın üçrəngli bayrağını paraüzgüçü Əli Vəliyev və taekvondoçu Xuraman Cavadzadə daşıyacaqlar.

# AFFA UEFA-ya müraciət edib

AFFA 2027-ci ildə Çempionlar Liqasının final oyununa ev sahibliyi üçün UEFA-ya müraciət edib.

Bu barədə AZƏRTAC-a milli assosiasiyanın mətbuat xidmətindən məlumat verilib.



Bildirilib ki, qitənin bir nömrəli klub turnirinin həlledici matçının Bakı Olimpiya Stadionunda (BOS) keçirilməsi üçün Avropa futbol qurumuna rəsmi müraciət ünvanlanıb.

UEFA-nın yaydığı məlumata görə, BOS-la yanaşı, İspaniyanın Madrid şəhərində yerləşən “Metropolitano” stadionu da final oyununa ev sahibliyi etməyə namizədliyini irəli sürüb.

Qeyd edək ki, bu mövsüm Çempionlar Liqasının finalı görüşü Almaniyanın Münhen şəhərində keçiriləcək.




# “Bakcell” UNEC-də keçirilən İnnovasiya Həftəsinin əsas tərəfdaşıdır

İnnovasiya və sürət lideri “Bakcell”in əsas tərəfdaşlığı ilə UNEC-də İnnovasiya Həftəsi keçirilir. Tədbirin ilk günündə “Bakcell”in nümayəndələri “Telekommunikasiyada qlobal trendlər: “Bakcell”in innovativ məhsul və həlləri” və “Dəyişən dünyada böyük dəyişikliklər qarşısında aktual qalmaq” mövzularında panel müzakirələrə qatılıblar.

“Bakcell”in İctimaiyyətlə əlaqələr və korporativ kommunikasiyalar üzrə rəhbəri Aysel Süleymanova və Marketinq direktoru Elxan Sadıqzadə tələbələrə brendin rəqəmsal erada mövqeləndirilməsi, müasir çağırışlar və imkanlar, rəqəmsal imic formalaşdırılmasının incəlikləri və müştərilərin diqqətini cəlb etmək üçün strategiyalar barədə məlumat verib, həmçinin onları maraqlandıran sualları cavablandırıblar.

UNEC-də keçirilən İnnovasiya Həftəsi innovasiya sahəsində yenilikləri təşviq etmək və tələbələrin yaradıcılıq potensialını üzə çıxarmaq məqsədi daşıyır. Həftə ərzində universitetdə müxtəlif tədbirlər, o cümlədən seminarlar, təlimlər, panel müzakirələri və startap ideyalarının təqdimatları təşkil ediləcək.Top of Form

Qeyd edək ki, “Bakcell” gənc nəslin inkişafına və onların yaradıcı potensialının üzə çıxarılmasına xüsusi önəm verir. Şirkət bu istiqamətdə tələbələrə dəstək olmaq, innovativ layihələri təşviq etmək və yeni təşəbbüsləri daha da genişləndirməyi planlaşdırır.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Qurban Qurbanov: “Ayaks”la matç çox vacibdir”



Çox vacib matçdır. “Report” xəbər verir ki, bunu “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Avropa Liqasında Niderlandın “Ayaks” komandasına qarşı keçirəcəkləri oyundan əvvəl mətbuat konfransında deyib.

Təcrübəli mütəxəssis tanınmış kluba qarşı oynayacaqlarını bildirib:

“Rəqib dünya futbolunda tanınır. “Ayaks”ın futbolun böyüməsində çox payı olub. Qarşılaşmaya pis hazırlaşmamışıq. Futbolçuların hazırlıq səviyyəsi pis deyil, istəklidirlər. Azarkeşlərin razı qalacağına inanıram. Bu da bizim üçün önəmlidir”.

Q.Qurbanov Marko Veşoviş və Mateus Silvanın sözügedən görüşdə meydana çıxmayacağını söyləyib:

“Belə klubların Bakıya gəlməsi futbolumuza sevginin artması, inkişaf üçün böyük təkandır. Azyaşlı oyunçular belə nəhəng klubların Azərbaycana gəldiyini görür. Bu da futbola sevgini daha da artıra bilər. Bizim də təcrübəmiz çoxdur. Böyük klublara qarşı oynamışıq. Çəkinmirik, məğlubiyyətlər də görmüşük. Gələcəyə nikbin baxmaq və böyümək istəyiriksə, bu cür komandalarla oynamaqdan çəkinməməliyik. Belə rəqibə qarşı necə düzgün oynamalıyıq? Bu barədə düşünməliyik. Rəqib yaxşı kollektivdir, dinamik və ağıllı futbol sərgiləyir. Onlara qarşı mübarizə aparacağıq və bəzi şeyləri də öyrənirik”.

Mütəxəssis ukraynalı futbolçu Aleksey Kaşuk haqqında da danışıb:

“Hazırlığı pis deyil. Amma tam razı deyiləm. Onu da yaxşı başa düşürəm. Oyunlardan, kollektiv məşqlərdən uzaq qalmaq futbolçu üçün yaxşı deyil. Ona inamımız da böyükdür. “Ayaks”la oyunda sürət, dinamika tam başqa olacaq. Onun texnikasından və bacarıqlarından istifadə edə bilərik”.

Qeyd edək ki, UEFA Avropa Liqasının Liqa mərhələsinin III turuna təsadüf edən “Qarabağ” - “Ayaks” matçı oktyabrın 24-də, Bakı vaxtı ilə saat 20:45-də başlayacaq.

# Azərbaycan boks millisinin yeni baş məşqçisi müəyyənləşib



Azərbaycanın kişi boksçulardan ibarət millisinin yeni baş məşqçisi müəyyənləşib.

Boks Federasiyasından “Report”a verilən məlumata görə, yığma ötən ildən qurumda texniki direktor kimi çalışan özbəkistanlı Ravşan Xocayevə tapşırılıb.

44 yaşlı mütəxəssis Özbəkistanın boks üzrə idman ustasıdır. O, məşqçilik fəaliyyətinə 1998-ci ildə başlayıb. Karyerası ərzində Özbəkistan, Asiya, dünya və Olimpiya çempionları yetişdirib.

2016-2023-cü illərdə Özbəkistan Boks Federasiyasının Məşqçilər Şurasında çalışıb. Beynəlxalq Boks Assosiasiyasının 3 ulduz kateqoriyalı məşqçisi olan Xocayev həmçinin Özbəkistanın əməkdar məşqçisidir. “Dostluq ordeni” ilə təltif edilib. 2016-cı ildə beynəlxalq premiyanın laureatı olub. Nəzəriyyə, metodika və idman üzrə professor elmi dərəcəsinə malikdir.

Qeyd edək ki, R.Xocayev bu postda müqavilə müddəti başa çatan kubalı Pedro Rokeni əvəzləyib.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4832**
**Sifariş: 2451**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli